## AZƏRBAYCAN MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN ÜÇÜNCÜ KORPUSU ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRA AÇILIB

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər

Dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə...



Bax səh. 2

## AZƏRBAYCANDA HƏRBÇİLƏRİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ DAİM DÖVLƏTİN DİQQƏT MƏRKƏZİNDƏDİR

***Prezident İlham Əliyev*: Ordu quruculuğu prosesində əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur**

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan dinamik inkişaf yolunda inamla irəliləyir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 19 dekabr 2018-ci il, çərşənbə / № 240 (5367). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Səhiyyə sahəsində həyata keçirilən siyasətin məqsədi Azərbaycan vətəndaşlarının sağlamlığını və səviyyəli tibbi xidmət almaq imkanını təmin etməkdir



*Prezident İlham Əliyev Bakıda Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Gülağa Bayram oğlu İslamovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

### Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah

Azərbaycan xalqı böyük dövlətçilik tarixinə malikdir. Bu baxımdan, 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti də milli dövlətçilik tariximizin şanlı səhifələrindən biridir. 23 ay mövcud olmasına baxmayaraq, Xalq Cümhuriyyəti özünün dövlətçilik əsasları və demokratik islahatları ilə müsəlman Şərqinin mayakı rolunu oynamağı bacardı. Şübhəsiz ki, bu gün hər bir azərbaycanlı bu şanlı tarix ilə qürur duyur. Məhz Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi də Cümhuriyyətin dövlətçilik tariximizdə yerinə və roluna verilən böyük önəmin ifadəsidir...

Bax səh. 8

### Milli Məclisin növbəti iclası keçirilib

Dekabrın 18-də Milli Məclisin növbəti iclası keçirilib. İclası açan Milli Məclisin sədri Oqtay Əsədov gündəlikdəki məsələlər haqqında məlumat verib. Daha sonra Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri, Milli Məclisin deputatı Cavanşir...



Bax səh. 5

### Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri ilə ilin yekunlarına həsr olunan qəbul təşkil edilib

Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri ilə dekabrın 18-də cari ilin yekunlarına həsr olunan qəbul təşkil edilib. AZƏRTAC xəbər verir ki, qəbulda çıxış edən xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın 2018-ci il ərzində həyata keçirdiyi xarici siyasət və bu istiqamətdə əldə olunan nailiyyətlər barədə danışıb. Nazir əsas diqqəti...

Bax səh. 5

### Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Pekində Azərbaycan-Çin dostluq konserti keçirilib

Heydər Əliyev Fondunun və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Pekində Azərbaycan-Çin...



Bax səh. 4

### Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın Bakıda keçirilməsi ilə bağlı hazırlıq işləri davam edir

Dekabrın 18-də Nazirlər Kabinetində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində təşkil edilməsi ilə əlaqədar növbəti hazırlıq iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakıda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında...

Bax səh. 4

# *Polşanın "Ambasador" jurnalı:*
# Azərbaycan Avropaya doğru

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" sərlövhəli məqaləsi barədə Polşanın nüfuzlu "Ambasador" jurnalının 36-cı sayında polyak və ingilis dillərində "Azərbaycan Avropaya doğru" adlı material dərc edilib.

AZƏRTAC-ın xüsusi müxbirinin təqdim etdiyi materialda deyilir: **"Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri (uzunluğu 1767 kilometr), 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (uzunluğu 980 kilometr) istifadəyə verilib. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulub. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə davam etdirilib, 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir.**



**1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılıb. Yeni şərtlərə görə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulub. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə 3,6 milyard dollar bonus ödəniləcək. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaradıb.**

**Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olub. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılıb. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib".**

# Səhiyyə sahəsində həyata keçirilən siyasətin məqsədi Azərbaycan vətəndaşlarının sağlamlığını və səviyyəli tibbi xidmət almaq imkanını təmin etməkdir

*Prezident İlham Əliyev Bakıda Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 18-də Səhiyyə Nazirliyinin Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, bu binada 1934-cü ildə Bakı Şəhər Səhiyyə Şöbəsinin nəzdində Balneofizioterapiya İnstitutu yerləşib. İki il sonra isə bu institutun bazasında Azərbaycan Dövlət Kurortologiya və Fizioterapiya İnstitutu yaradılıb. 1988-ci ildə bu institut Naftalan şəhərindəki problem laboratoriyası ilə birləşdirilərək Elmi-Tədqiqat Tibbi Bərpa və Təbii Amillərlə Müalicə İnstitutu adlandırılıb. 1999-cu ildə isə bu tibb müəssisəsinin adı profili və fəaliyyətinə uyğunlaşdırılaraq Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutuna dəyişdirilib.

Azərbaycanda bütün sanatoriya və kurort müəssisələrinin elmi cəhətdən əsaslandırılması, orada aparılan müalicə bu institut tərəfindən hazırlanmış elmi-metodiki tövsiyələr əsasında aparılır. İnstitutda konsultativ poliklinika, stasionar, diaqnostik tədqiqatlar və fiziki üsullarla müalicə şöbələri fəaliyyət göstərir. Tibb ocağının stasionar hissəsində terapiya, artrologiya və nevrologiya bölmələri olacaq. Diaqnostik tədqiqatlar bölməsində 3 laboratoriya yaradılıb. Kliniki-immunologiya, biokimyəvi və kliniki neyrofiziologiya laboratoriyalarında ən müasir avadanlıq quraşdırılıb. Bu avadanlıq laborator müayinələri qısa müddətə, həm də keyfiyyətlə aparmağa hərtərəfli imkan verir. Müalicəvi şöbələrə isə Naftalan nefti ilə müalicə, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin müalicəvi bədən tərbiyəsi kabineti aiddir. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutundakı oftalmoloq, stomatoloq, terapevt, USM, EKQ, balneoloji vanna və digər otaqlar da müasir tibbi avadanlıqla təchiz olunub.

İnstitutun elm bölməsində 43 elmi işçi, klinika bölməsində 43 həkim, 76 tibb bacısı və 118 nəfər digər işçi olmaqla, burada ümumilikdə 280 nəfər çalışır. İşçilərin 20 nəfəri fəlsəfə doktoru, 3 nəfəri tibb elmləri doktoru, 2 nəfəri professor, 1 nəfəri isə professor, Əməkdar elm xadimi olmaqla AMEA-nın müxbir üzvüdür.



Son illərdə müasir tibb müəssisələrinin yaradılması, mövcud sağlamlıq ocaqlarının yüksək səviyyədə yenidən qurulması Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində icra edilən layihələrin mühüm tərkib hissəsidir. Səhiyyə sistemində aparılan ardıcıl islahatlar nəticəsində bu gün bu sahə yeni, müasir mərhələyə qədəm qoyub. Bu cür müasir səhiyyə ocaqlarının yaradılması, ilk növbədə, vətəndaşların sağlamlığının qorunması və bərpası, onların müayinə-müalicə işini yüksək səviyyədə qurmaq üçün atılan addımlardandır.

Sonra dövlətimizin başçısı müəssisənin kollektivi ilə görüşüb.

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: **"Bu gün biz Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əsaslı təmirdən sonra açılışını qeyd edirik. Bu münasibətlə institutun kollektivini ürəkdən təbrik edirəm. Bu gözəl hadisə münasibətilə bütün xalqımızı təbrik edirəm. Çünki bu institutun Azərbaycanda xüsusi yeri vardır. Təxminən bir əsrə bərabər ömrü olan bu bərpa mərkəzinin yenidənqurmadan sonra indi ikinci həyatı başlayır. Mən indi buradakı stendlərdə binanın əvvəlki vəziyyəti, tikinti zamanı çəkilmiş şəkilləri ilə tanış oldum. Onlar çox böyük maraq doğurur. Hələ 1925-ci ildə institutun tikintisi ilə bağlı müvafiq göstəriş verilmişdir. Bu institut 100 ilə yaxın müddət ərzində Azərbaycan sakinlərinə xidmət göstərmişdir. Siz - burada işləyənlər yaxşı bilirsiniz ki, bu institutun ölkəmizin səhiyyə sistemində xüsusi yeri var. Bilirəm, təmir zamanı vətəndaşlar gözləyirdilər ki, bu institut tezliklə açılsın və onun imkanlarından istifadə olunsun. Əlbəttə ki, bu gün burada yaradılan müasir şərait ən yüksək standartlara cavab verir. Həm təmir-tikinti işləri çox böyük peşəkarlıqla, zövqlə aparılıb, həm də burada quraşdırılan müasir avadanlıq, əlbəttə, xəstələrə ən yüksək səviyyəli xidmət göstərəcəkdir. Bu gün öz sağlamlığını bərpa etmək istəyənlər mütləq buraya gəlib şəfa tapacaqlar.**

**Bu institutun binası həm də çox gözəl memarlıq abidəsidir. Binanın həm xarici görünüşü, həm daxili dizaynı göz oxşayır. İnstitutun sahəsi də çox böyükdür, 14 min 600 kvadratmetr sahədə yerləşir. Yenə də demək istəyirəm ki, burada ən yüksək səviyyədə xidmət göstəriləcəkdir. Bu, bir daha ölkəmizin səhiyyə sahəsinə göstərdiyi diqqətin təzahürüdür. Bu, bir daha onu göstərir ki, insanların sağlamlığı bizim üçün ən əsas vəzifədir. Təsadüfi deyil ki, son 15 il ərzində təqribən 650-yə yaxın tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib, bax, bu səviyyədə təmir olunub. Bu gün ölkəmizin istənilən yerində yüksəkkeyfiyyətli tibbi xidmət almaq mümkündür. Demək olar ki, mərkəzi şəhər və rayon xəstəxanalarının tikintisi və əsaslı təmiri prosesi başa çatır, bir neçə xəstəxana öz açılışını gözləyir. Əminəm ki, yaxın 1-2 ildə bu məsələ də öz həllini tapacaq. Bu, ölkəmizin səhiyyə sisteminə verilən çox böyük töhfədir. Çünki bu gün hər bir şəhərdə, rayonlarımızın mütləq əksəriyyətində ən müasir standartlara cavab verən tibb müəssisələri fəaliyyət göstərir və vətəndaşlara xidmət edir. Əgər buna nail olmasaydıq, əgər səhiyyə sahəsinin maddi-texniki bazasını yaratmasaydıq, biz bu gün apardığımız siyasəti apara bilməzdik. Çünki bu gün sosial siyasətin tərkib hissəsi olan səhiyyə sahəsindəki islahatlar, qoyulan investisiyalar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, Azərbaycanda yüksək səviyyəli tibbi xidmət ala bilsinlər. Bildiyiniz kimi, son illərdə bütün ölkə üzrə 5 milyondan çox Azərbaycan vətəndaşı hər il pulsuz tibbi müayinədən keçir və aşkar edilən xəstəliklər müalicə olunur. Azərbaycan nadir ölkələrdəndir ki, belə genişmiqyaslı sosial layihə icra edilir. Mən dəfələrlə bildirmişdim ki, Azərbaycan vətəndaşları ildə ən azı bir dəfə tibbi müayinədən keçsinlər. Şadam ki, bu çağırışlar həyatda öz əksini tapır. Xüsusilə nəzərə alsaq ki, hər bir yerdə müayinədən keçmək üçün şərait var və 5 milyondan çox insanın bu imkanlardan istifadə etməsi bizim siyasətimizin qələbəsidir.**

**Ölkəmizdə bu sahədə aparılan işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. BMT-nin Minilliyin İnkişaf Məqsədləri Proqramı çərçivəsində, o cümlədən səhiyyə sahəsində aparılan işlər yüksək qiymətə layiqdir. Həmçinin Dünya Səhiyyə Təşkilatı bizim işimizi yüksək qiymətləndirir. Bir sözlə, bu sahədə aparılan islahatlar və dövlət tərəfindən qoyulan vəsait öz nəticəsini verir. Nəticədə ondan ibarətdir ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, gənc nəsil sağlam həyat tərzi sürsün, pis vərdişlərdən uzaq olsun. Sağlamlığı təmin və bərpa etmək üçün Azərbaycanda bütün şərait var. Bir daha demək istəyirəm ki, bu institutun yenidən fəaliyyətə başlaması bu sahədə atılan çox önəmli addımdır.**

**Mən sizi bu gözəl hadisə, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram, sağ olun".**

* * *

Səhiyyə sisteminin müasirləşdirilməsi istiqamətində görülən işlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən səhiyyə naziri Oqtay Şirəliyev deyib: **"Möhtərəm cənab Prezident, çox hörmətli Mehriban xanım.**

**Siz hər Yeni il ərəfəsində həmişə bir tibb müəssisəsi açırsınız. Çox sağ olun, bu gün də bu açılışda iştirak edirsiniz. Səhiyyə ilə bağlı xoş sözlərinizə görə Sizə dərin hörmət və ehtiramımızı bildirmək istəyirik.**

**Cənab Prezident, Siz səhiyyənin bütün problemlərinə, ümumiyyətlə, səhiyyəyə həmişə diqqət və qayğı ilə yanaşmısınız. Bu da o deməkdir ki, insanların sağlamlığı, gənc nəslin sağlam böyüməsi Sizin üçün ən vacib meyarlardan biridir. Bu, bizim dövlətin siyasətidir, bu, Sizin siyasətinizdir. O siyasətin göstəriciləri yüzlərlə yeni xəstəxana, tibb mərkəzi, ən müasir avadanlıq, təhsil üçün ən qabaqcıl xarici klinikalara göndərilən tələbələr, tibb işçiləri, mütəxəssislərdir. Bütün bunlara görə biz Sizə çox dərin minnətdarıq.**

**Cənab Prezident, Siz də, Mehriban xanım da tibb ictimaiyyətinin nümayəndələri ilə görüşəndə həmişə xüsusi vurğulayırsınız ki, həkimlik xüsusi sənətdir, həkim gərək bilikdən, bacarıqdan başqa, həm də şəfqət və mərhəmət sahibi olsun. Siz həmişə həkimlərə, tibb işçilərinə çox yüksək qiymət vermisiniz. Çalışacağıq ki, biz bu yüksək qiymətə layiq olaq. Çox sağ olun, cənab Prezident".**

* * *

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusu əsaslı bərpa və yenidənqurmadan sonra açılıb

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

Dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış olublar.

Mədəniyyət naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verib.

Qeyd edilib ki, Azərbaycan Milli İncəsənət Muzeyi XIX əsrdə inşa edilən iki yanaşı tarixi binada yerləşir. 1891-1893-cü illərdə Bakının baş memarı Nikolay fon der Nonne tərəfindən inşa edilən binada ayrı-ayrı vaxtlarda müxtəlif idarə və təşkilatlar yerləşib. 1936-cı ildə əsası qoyulan İncəsənət Muzeyi 1951-ci ildən bu binada fəaliyyətini davam etdirib. Burada çox sayda qiymətli sənət əsərinin yerləşdirilməsi və ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı daha da artırıb. Zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin toplandığı bu binanın təmiri zərurətini yaradıb. Əvvəllər burada belə genişmiqyaslı təmir işləri aparılmayıb. Prezident İlham Əliyevin Sərəncamı ilə muzeydə əsaslı təmir və yenidənqurma işləri görülüb. "Mariinski Qadın Gimnaziyası" adlanan birinci korpus 2009-cu ilin sentyabrında istifadəyə verilib.





2014-2018-ci illərdə isə muzeyin "De Burun malikanəsi" adlanan korpusunda İtaliya və Azərbaycan mütəxəssislərinin birgə səyləri ilə əsaslı təmir işləri həyata keçirilib. Bərpa-təmir işlərinə başlamazdan əvvəl muzey binasında xüsusi tədqiqat aparılıb. Binanın fiziki və texniki vəziyyəti öyrənilib. Ölkə əhəmiyyətli bu memarlıq abidəsinin tavan və divarlarında mövcud yapma rəsm bəzək və digər işlər ilkin vəziyyətə gətirilib. Memarlıq və bəzək elementləri təmizlənib, bərkitmə işləri yerinə yetirilib. Uzun illər ərzində cari təmir işləri aparmaqla tavan və divarlarda yeddi qat üst-üstə vurulan boya xüsusi texnologiya ilə təmizlənərək birinci rəng qatı müəyyən edilib. Əsas giriş qapıları və bir çox daxili qapılar təmizlənərək bərpa olunub. Milli İncəsənət Muzeyində yeni yaradılan şərait sərgi zallarında yerləşdirilən əsərlərin bütün təsiredici amillərdən - nəmişlik, temperatur, ultra şüalar və digər amillərdən qorunmasını və təhlükəsizliyini təmin edir, bununla bərabər, muzeyə gələn insanların rahatlığına, eyni zamanda, baxdıqları əsərlərdən zövq almalarına şərait yaradır.

Binanın memarlığı və qədimliyi saxlanılmaqla həm texniki, həm də texnoloji baxımdan lazım olan innovativ və yeni funksionallığı təmin edilib. Yenidənqurma və əsaslı təmir işləri ilə yanaşı, binada ekspozisiya zalları genişləndirilib, binanın seysmik davamlılığı artırılıb. On səkkiz mindən çox eksponatın saxlanıldığı Milli İncəsənət Muzeyində rəngkarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi sənət nümunələri nümayiş olunur. Üçüncü korpusda isə 2 mindən çox eksponat saxlanılır.

Bildirilib ki, Azərbaycan Milli İncəsənət Muzeyinin mövcud binaları arasında mərkəzləşdirilmiş giriş yaratmaq üçün 2013-cü ildə açılışı olan keçid korpusu da var. Bina memarlığın həm ampir, həm də barokko üslublarının istifadə edildiyi tarixi memarlıq abidəsidir. Xüsusi sifariş edilmiş güzgülər, çıraqlar və sobalar bu məkana gözəllik verir.

Muzeydə dünya incəsənəti nümunələri də nümayiş etdirilir. Ekspozisiya planına əsasən kolleksiyanı Qərbi Avropa, o cümlədən İtaliya, Hollandiya, Almaniya, Fransa, həmçinin Rusiya və Çin, Türkiyə, İran və Hindistan da daxil olmaqla Şərq incəsənəti təşkil edir. İlk dəfə olaraq yeni ekspozisiyada qədim dünya incəsənəti də təqdim olunur: buraya qədim Misir, qədim Yunanıstan, qədim Roma və qədim İran incəsənətləri daxildir. Bununla yanaşı, ilk dəfə olaraq Fransa zallarında fransız impressionistlərin əsərlərini görmək mümkündür. Bundan başqa, muzeyin ekspozisiyasında Rusiya avanqardı ilə yanaşı, avanqard çini məmulat və əsərləri də seyr etmək imkanı olacaq. Dünyanın istənilən muzeyi burada təqdim olunan əsərlərlə fəxr edə bilər.

Binada aparılan yenidənqurma və əsaslı təmir işləri, nümayiş etdirilən zəngin kolleksiya ilə yaxından tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət ocağının fəaliyyətinə uğurlar arzulayıblar.

# Azərbaycanda hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir

***Prezident İlham Əliyev:** Ordu quruculuğu prosesində əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur*

*Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan dinamik inkişaf yolunda inamla irəliləyir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan ötən müddət ərzində möhtəşəm nailiyyətlər qazanıb, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Son 15 il ərzində ölkəmizdə bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, Azərbaycan iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Digər tərəfdən, ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq iqtisadi və sosial inkişaf paralel şəkildə təmin edilir, güclü iqtisadi inkişaf dərin məzmunlu sosial siyasətlə tamamlanır. Ümumiyyətlə, Azərbaycanda dövlət siyasətinin çox mühüm tərkib hissəsini sosial siyasət təşkil edir. Dövlətin sosial qayğısı cəmiyyətin bütün təbəqələrini əhatə edir. Ölkəmizdə hərbçilərin, şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin, eləcə də qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi də dövlətin diqqət mərkəzindədir.*



Xüsusi olaraq qeyd etmək lazımdır ki, ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, onların əməkhaqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli də daim dövlətin diqqət mərkəzindədir və bu istiqamətdə ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilir. Vurğulamaq yerinə düşər ki, Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Azərbaycan Prezidentinin Fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilib.

Qeyd etmək lazımdır ki, dekabrın 17-də Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak edib. Vurğulayaq ki, Prezident İlham Əliyevin “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” 2011-ci ildə imzaladığı Fərmana əsasən, həmin binalardan ümumi sahəsi 37 min kvadratmetrdən çox olan 394 mənzil hərbi qulluqçular üçün ayrılıb. Onların 3-ü birotaqlı, 192-si ikiotaqlı, 185-i üçotaqlı, 14-ü isə dördotaqlıdır.

*“Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilmişdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Onlara minlərlə avtomaşın verilmişdir”*

Daimi su, qaz, elektrik enerjisi ilə təmin olunan mənzillərə telefon və internet xətti də çəkilib. İstilik və isti su təchizatını təmin etmək məqsədilə hər bir mənzil kombi sistemi ilə təchiz olunub. Dövlətimizin başçısı mərasimdə çıxışı zamanı deyib: **“Bilirsiniz ki, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq Fərman imzalanmışdır. Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir. Bu günə qədər 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilib. Mənzillərin hamısı çox gözəldir. Mən bu binaların açılışlarında şəxsən iştirak etmişəm və bu gün də tanış olduğum mənzillər çox rahat, geniş və təmirli mənzillərdir. Azərbaycan nadir ölkələrdəndir ki, belə proqram icra edilir. Bu, bir daha dövlətimizin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürüdür, bunun nümunəsidir”.**

Digər tərəfdən, hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində də davamlı və səmərəli tədbirlər həyata keçirilir. Bəhs olunan mərasimdə bu məsələyə toxunan dövlətimizin başçısı **“Onu da qeyd etməliyəm ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır”,** - deyə vurğulayıb.

## DÖVLƏT TƏRƏFİNDƏN ŞƏHİD AİLƏLƏRİNƏ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ YÜKSƏK DİQQƏT VƏ QAYĞI GÖSTƏRİLİR

Qeyd etdiyimiz kimi, ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, insanların sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində uğurlu dövlət siyasəti həyata keçirilir. Təbii ki, bu kontekstdə torpaqlarımızın azadlığı uğrunda vuruşan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinə göstərilən qayğı xüsusilə qeyd olunmalıdır. Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə də yüksək dövlət qayğısı davamlı xarakter daşıyır. Dövlətimizin başçısının bu istiqamətdə müvafiq Fərman və sərəncamları əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Vurğulamaq gərəkdir ki, son illərdə bu kateqoriyadan olan insanlar üçün minlərlə ev və mənzil tikilərək istifadəyə verilib, eyni zamanda, onlar minik avtomobilləri ilə təmin olunublar. Qeyd edək ki, 2017-ci ildə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən 315 nəfər mənzil və fərdi evlə təmin ediliblər. Prezident İlham Əliyevin 2 avqust 2018-ci il tarixli Sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2018-ci ildə əlavə olaraq minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılıb. Bu da 2018-ci ildə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə verilməsi nəzərdə tutulan mənzillərin sayının 2,4 dəfə artırılmasına imkan yaradıb. Bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcək. Çıxışında bu məqama toxunan dövlətimizin başçısı **“onu da bildirməliyəm ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilmişdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Onlara minlərlə avtomaşın verilmişdir”**, - deyib.

*“Hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq Fərman imzalanmışdır. Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir. Bu günə qədər 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilib”*

Onu da qeyd etmək lazımdır ki, 1 noyabr 2018-ci il tarixə kimi müharibə əlillərinə verilən avtomobillərin cəmi sayı 6144-dür. Cari ildə onlara 265 avtomobil verilib. Bununla yanaşı, ötən il əlilliyi olan şəxslərə 33 min ədəd protez-ortopedik məmulat və reabilitasiya vasitəsi, tibbi göstərişi olan əlillərə 1193 ədəd əlil arabası verilib, 39,8 min nəfərə bərpa xidməti göstərilib. Prezident təqaüdü ilə yanaşı, müharibə əlillərinin böyük əksəriyyəti əlilliyə görə əmək pensiyası, qalan az bir qismi isə əlilliyə görə müavinət də alır. Eyni zamanda, müharibə əlillərinin uşaqlarına aylıq sosial müavinət verilir. İl ərzində dövlət vəsaiti hesabına 1,8 min-2 min nəfər müharibə əlilinə protez-ortopedik xidmət göstərilir. Bundan başqa, il ərzində dövlət vəsaiti hesabına orta hesabla 7,1 min əlilliyi olan şəxsə və şəhid ailəsi üzvünə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sanator-kurort putyovkası və istirahət göndərişləri verilir. Digər tərəfdən, Qarabağ müharibəsi əlillərinin uşaqları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil aldıqda təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Şəhid ailələrinə 242 AZN aylıq Prezident təqaüdü verilir. Əmək pensiyasına hər ay əlavə vəsait ödənilir. Əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət, həmçinin şəhid ailələrindəki uşaqlara aylıq sosial müavinət verilir. Eyni zamanda, şəhid ailələrinin uşaqları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil aldıqda təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Milli Qəhrəmanlara (və ya həlak olanların ailələrinə) isə aylıq 1500 AZN Prezident təqaüdü ödənilir. Milli Qəhrəman ailəsi üzvlərinin əmək pensiyasına hər ay 110 AZN əlavə edilir.

## QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏR HƏRTƏRƏFLİ DÖVLƏT QAYĞISI İLƏ ƏHATƏ OLUNUBLAR

Ümumiyyətlə, ölkəmizdə qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər ki, bu sırada da qaçqın və məcburi köçkünlər, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələri xüsusi olaraq qeyd edilməlidir. Bu kateqoriyaya aid olan insanların problemlərinin həlli daim dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Son 15 ildə ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq qaçqın və məcburi köçkünlərin problemlərinin həlli məqsədilə müxtəlif proqramlar reallaşdırılıb. Dövlət başçısı tərəfindən 2004-2018-ci illərdə məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı 55 Fərman və Sərəncam imzalanıb. Bütövlükdə isə, cari ildə 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin olunublar ki, bu, olduqca yüksək göstəricidir. Prezident İlham Əliyev sözügedən çıxışı zamanı qeyd edib ki, müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır: **“Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik”.**

Ümumiyyətlə, bu günə qədər 290 minədək köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Bu il, qeyd etdiyimiz kimi, 20 min köçkün (5800 ailə), ötən il isə 12 min köçkün yeni evlərlə təmin olunub.

*“Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır”*

## AZƏRBAYCAN DÖVLƏTİ ŞƏHİD HƏRBİ QULLUQÇULARIN VƏRƏSƏLƏRİNİN MADDİ VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASINI DİQQƏTDƏ SAXLAYIR

Bəlli olduğu kimi, Prezident İlham Əliyev 19 aprel 2018-ci il tarixində “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Fərman imzalayıb. Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub.

Qeyd edək ki, 1997-ci il avqustun 2-də “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılmış, belə ödənişlərlə bağlı maliyyə təminatı məsələsi həll edilmiş və qanuna uyğun olaraq sığorta ödənişlərinin verilməsinə başlanılmışdır.

Həmin qanunun tətbiqindən əvvəl Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məsələləri isə açıq qalmışdır. Buna görə də Azərbaycan Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanı məhz bu kateqoriyaya aid hərbi qulluqçuların vərəsələrinə aiddir. Həmin Fərmana əsasən müvafiq sənədlər əsasında hazırlanan siyahılar üzrə vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ olan şəhid hərbi qulluqçuların sayı 9531 nəfərdir. Yuxarıda qeyd olunan kateqoriyadan olan hərbi qulluqçuların vərəsələrinə ödənilməkdən ötrü cari il üçün 58 milyon, 2019-cu il üçün isə 50 milyon manat maliyyə vəsaiti ayrılıb. Şübhəsiz ki, bəhs olunan Fərman Azərbaycan Prezidenti İlham Əliyevin humanist siyasətinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğısının bariz nümunəsi kimi dəyərləndirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: **“Siz onu da bilirsiniz ki, builki prezident seçkilərindən dərhal sonra imzaladığım birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır. Ancaq təbii ki, hər sahədə olduğu kimi, bu sahədə də ədalət prinsipi əsas olmalıdır”.**

*“Müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır. Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik”*

*“Builki prezident seçkilərindən dərhal sonra imzaladığım birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq”*

## AZƏRBAYCAN ORDUSU İSTƏNİLƏN VƏZİFƏNİ İCRA ETMƏYƏ QADİRDİR

Bütün bunlarla yanaşı, ölkəmizdə ordu quruculuğu sahəsində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordu quruculuğu istiqamətində həyata keçirilən sistemli və məqsədyönlü tədbirlərin nəticəsi kimi, Azərbaycan güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir.

Bütövlükdə, ordu quruculuğu istiqamətində ardıcıl xarakter daşıyan məqsədyönlü işlər səmərəli nəticələr verib. Ötən müddət ərzində hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədə olub, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilib. Bunlarla yanaşı, aviasiyada hava hücumundan müdafiə üzrə yeni texnikaların alınması, mövcud texnikanın modernləşdirilməsi nəticəsində hissə və bölmələrin müxtəlif hava şəraitində döyüş fəaliyyəti imkanları artırılıb. Hərbi Dəniz Qüvvələrinin döyüş potensialının gücləndirilməsi istiqamətində də məqsədyönlü işlər görülməkdədir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artması yalnız Silahlı Qüvvələrin yüksək texniki təchizatı ilə şərtlənmir. Kadr hazırlığının davamlı olaraq diqqət mərkəzində saxlanılması da ordumuzun döyüş hazırlığının yüksək səviyyəyə qalxmasına öz müsbət təsirini göstərib. Ordunun silahlanmasına yeni daxil edilən silah və texnikanın öyrənilməsi və düzgün istismarını təmin etmək məqsədilə kadrların hazırlığına xüsusi diqqət yetirilir, təşkil edilən kurslarda hərbi qulluqçularımız müvafiq təhsil alır və öz bacarıqlarını təkmilləşdirirlər. Bir sözlə, Azərbaycanda ordu quruculuğu prosesi müvəffəqiyyətlə davam etdirilir. Yeri gəlmişkən, Prezident İlham Əliyev bəhs olunan mərasimdə çıxışı zamanı qeyd edib ki, Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir: **“Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir. Deyə bilərəm ki, bu il də Naxçıvan istiqamətində Ermənistan-Azərbaycan sərhədi sahəsində ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar torpaq tam nəzarətimizə keçmişdir. Biz strateji yüksəklikləri əldə etdik. Bu yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisində strateji yollara, kommunikasiyalara tam nəzarət edə bilək. Həm Aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər”.**

Ümumiyyətlə, yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusu qarşıya qoyulan istənilən vəzifəni icra etmək gücündədir. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilmiş hərbi parad, o cümlədən Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad da Azərbaycan Ordusunun istənilən vəzifəni icra etməyə qadir olduğunu nümayiş etdirdi. Digər tərəfdən, məhz Aprel döyüşləri və Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Bütövlükdə isə, Azərbaycanın hərbi gücü - qüdrəti Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ən birinci amildir. Azərbaycanın hərbi qüdrəti mütəmadi olaraq artır, ordumuzun malik olduğu texnika və silahlar işğalçıların istənilən hərbi hədəfini darmadağın etməyə imkan verir. Dövlətimizin başçısının qeyd etdiyi kimi: **“Əlbəttə, bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir. Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir”.**

Qeyd etdiyimiz kimi, müharibə şəraitində yaşayan bir ölkə kimi Azərbaycanın güclü orduya, təkmilləşmiş hərbi sistemə, inkişaf etmiş müdafiə sənayesinə malik olması böyük önəm kəsb edir. Prezident İlham Əliyevin vurğuladığı kimi, ordu quruculuğu prosesində əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur.

**Nurlan QƏLƏNDƏRLİ**

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Pekində Azərbaycan-Çin dostluq konserti keçirilib

Heydər Əliyev Fondunun və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Pekində Azərbaycan-Çin dostluq konserti keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin xaricdə tanıdılması və təbliği istiqamətində həyata keçirdiyi tədbirlərdən olan konsertin tamaşaçıları arasında Çin Xalq Respublikasının (ÇXR) rəsmiləri, o cümlədən Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin, Kommunist Partiyasının, Xarici İşlər Nazirliyinin, Pekin xalq hökumətinin, digər dövlət qurumlarının məsul işçiləri olublar.















Konsertdən əvvəl çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycan ilə Çinin dost və tərəfdaş ölkələr olduğunu qeyd edərək, xalqlarımız arasında əlaqələrin tarixi İpək Yolu dövründən başladığını deyib. Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvi hələ XII əsrdə Azərbaycan-Çin dostluğunu “Yeddi gözəl” poemasında vəsf etdiyi Çin gözəli obrazı ilə təsvir edib. Belə bir möhkəm özül üzərində qurulmuş Azərbaycan-Çin dostluğunun və əməkdaşlığının indiki mənzərəsi daha zəngin və rəngarəngdir.

Baş nazirin müavini Azərbaycanın sürətlə inkişaf edən və dünyada özünəməxsus yeri ilə seçilən Çinlə əlaqələrə xüsusi önəm verdiyini, əməkdaşlığın bütün istiqamətlər üzrə genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyev və ÇXR Sədri Si Cinpin arasındakı qarşılıqlı hörmət və etimada əsaslanan siyasi dialoq ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün geniş imkanlar yaradır.

Si Cinpinin “Bir kəmər, bir yol” təşəbbüsünü xüsusi vurğulayan Ə.Əhmədov deyib ki, ölkəmizin ilk gündən dəstəklədiyi, dövlətlər və xalqlar arasında iqtisadi, humanitar və mədəni əlaqələrin dərinləşməsini özündə ehtiva edən bu vacib təşəbbüs Azərbaycanı və Çini daha da yaxınlaşdırıb. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəsi ilə “Bir kəmər, bir yol” təşəbbüsünün reallaşmasına öz töhfəsini verən Azərbaycan iqtisadi iş birliyi ilə yanaşı, Çinlə humanitar sahədə də müxtəlif layihələr həyata keçirməkdə maraqlıdır.

Baş nazirin müavini Azərbaycan-Çin humanitar əlaqələrinin genişləndirilməsində və müxtəlif mədəni layihələrin reallaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəal rolundan söz açıb. Azərbaycanın qədim tarixini və zəngin mədəniyyətini dünyada layiqincə təbliğ edən Heydər Əliyev Fondunun Çində reallaşdırdığı tədbirlər xalqlarımızın bir-birinin mədəni sərvətləri ilə daha yaxından tanış olmalarına imkan yaradacaq.

Qədim İpək Yolunun ölkələrimiz arasında dostluq əlaqələrinin təməlini qoyduğunu qeyd edən Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xon zəngin mədəniyyətə malik xalqlarımızın uzaq məsafədə yaşamasına baxmayaraq, bu yol vasitəsilə bir-birini tanımağa başladığını söyləyib. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 26 il ərzində qarşılıqlı anlaşma və etimad durmadan dərinləşib, müxtəlif sahələrdə dostluğa əsaslanan əməkdaşlıq inkişaf edib.

Azərbaycanın “Bir kəmər, bir yol” strategiyası üzərində yerləşən vacib bir ölkə olduğunu diqqətə çatdıran Şao Xon ötən müddətdə Azərbaycanın bu təşəbbüsün həyata keçməsində fəal iştirak etdiyini deyib.

“İnsanlar arasındakı dostluq ölkələr arasındakı dostluğun əsasını təşkil edir” fikrini vurğulayan Çin rəsmisi “Bir kəmər, bir yol” təşəbbüsünün inkişafı ilə birgə xalqlarımız arasındakı təmasların da gündən-günə çoxaldığını, hər iki tərəfdən müxtəlif sahələrdə əməkdaşlığın daha fəallaşdığını bildirib.

Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Azərbaycan musiqilərinin dünyada çox məşhur olduğunu diqqətə çatdırıb. O, dostluq konsertinin Çin xalqının Azərbaycanın milli mədəniyyətini daha yaxından tanıması üçün gözəl bir imkan olduğunu deyib. **“Musiqi bəşəriyyətin ümumi dilidir. Ümid edirəm ki, bu konsert Azərbaycanın qədim mədəniyyətinin sədasını bizə çatdıracaq, iki xalq arasındakı dostluq və sevgi körpüsünü daha da möhkəm edəcək”,** - deyə o əlavə edib.

Sonra səhnə Azərbaycan incəsənət ustalarının ixtiyarına verilib. Pekinin ən böyük konsert sarayı olan İfaçılıq Sənəti Milli Mərkəzində təşkil olunan konsertdə Fuad İbrahimovun dirijorluğu ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və Xalq artistləri Murad Hüseynov, Samir Cəfərov, Ənvər Sadıqov, Əməkdar artist Sahib Paşazadə, digər tanınmış incəsənət ustalarının ifasında Üzeyir Hacıbəylinin (“Arazbarı”, “Sevgili canan”), Fikrət Əmirovun (“Sevil” operasından Balaşın ariyası, “Azərbaycan elləri”, “Məhəbbət rəqsi”), Qara Qarayevin (“İldırımlı yollarla” baletindən parça), Niyazinin (“Arzu”), Cahangir Cahangirovun (“Qarabağ”, “Ay qız”), Aqşin Əlizadənin (“Cəngi”), Tofiq Quliyevin (“Bakı haqqında mahnı”, “Qaytağı”, film musiqilərindən poppuri), Həsən Rzayevin (“Çahargah” rapsodiyası), Faiq Sücəddinovun (“Qaytağı”), Müslüm Maqomayevin (“Azərbaycan”) əsərləri, xalq mahnıları, habelə Avropa bəstəkarlarının əsərləri ifa olunub. Tamaşaçılar Azərbaycan incəsənət ustalarının ifasını sürəkli alqışlarla qarşılayıblar. Çin ənənəvi musiqi parçalarının tarda, habelə aşıq ifasında təqdimatı isə salona toplaşanlar üçün əsl sürpriz olub.

Qeyd edək ki, konsert Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində baş tutub. Ötən ilin noyabrında Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında dostluq və əməkdaşlıq haqqında Memorandum imzalanıb. Bu ilin avqustunda isə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşüb.

Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Pekinə səfəri çərçivəsində Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xon və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin ilə görüşərək iki ölkə arasında əməkdaşlıq məsələlərini müzakirə edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun daxil olduğu nümayəndə heyəti Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının muzeyi ilə də tanış olub.

## Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın Bakıda keçirilməsi ilə bağlı hazırlıq işləri davam edir



Dekabrın 18-də Nazirlər Kabinetində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində təşkil edilməsi ilə əlaqədar növbəti hazırlıq iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakıda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Prezidentinin Sərəncamından irəli gələn və qarşıda duran məsələlər müzakirə edilib.

Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Təşkilat Komitəsinin sədri Əli Həsənov Azərbaycanda keçirilən bütün tədbirlərin həm təhlükəsizlik tələblərinə, həm də təşkilati tələblərə cavab verdiyini, Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın da yüksək səviyyədə keçiriləcəyini qeyd edib.

Əli Həsənov ölkəmizin narkotiklərlə mübarizə sahəsində prinsipial mövqe nümayiş etdirdiyini vurğulayıb.

Sonra Dövlət Gömrük Komitəsi sədrinin müavini İsmayıl Hüseynov konfransla əlaqədar komitə tərəfindən ciddi hazırlıq işlərinə başlanıldığını qeyd edib.

ABŞ-ın Ədliyyə Nazirliyi nəzdində Narkotiklərlə Mübarizə üzrə Administrasiyanın Orta Asiya üzrə regional direktoru Vilyam Varen konfransın beynəlxalq əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcəyini vurğulayıb.

Sonda aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## ADU-da “KİV-lərdə Azərbaycan dilinin təmizliyinin qorunması” mövzusunda müzakirələr aparılıb

Azərbaycan Dillər Universitetində (ADU) filologiya və jurnalistika fakültəsinin virtual jurnalistika kafedrasının müəllimi Nərgiz Cavadzadənin təşkilatçılığı ilə “KİV-lərdə Azərbaycan dilinin təmizliyinin qorunması” mövzusunda “dəyirmi masa” keçirilib.



ADU-dan AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar İmanov bildirib ki, xalqın həyat tərzində inkişaf nə qədər yüksək səviyyədə gedirsə, dil də onunla paralel şəkildə inkişafını tənzimləyir. **“Dil başqa dillərdən sözlər almalı, ünsiyyətə girməli və tərkibində müəyyən dəyişikliklər etməlidir. Ədəbi dilimizdə qarşılığı olan sözlər əvəzinə alınma sözdən istifadə doğru deyil. Eləcə də dilimizə daxil olan alınma söz artıq bizim sözümüzdür, ədəbi dilimizdə hüquq qazanan sözü işlətmək borcumuzdur. Amma dilimizin yersiz olaraq başqa dillərin təsirinə düşməsinə imkan vermək olmaz. Mətbuatda dil qüsuru cəmiyyətə öz mənfi təsirini göstərir. Gərək jurnalist müstəqilliyin verdiyi imkandan öz üslubunun ortaya qoyulmasında istifadə edə bilsin. Biz jurnalistin əl-qolunu bağlaya bilmərik ki, öz üslubunu tapmasın. Jurnalist söz manevri də etməli, mövzuya yanaşmanın da yeni-yeni yollarını axtarmalıdır. Əlbəttə, dilin leksik, qrammatik qaydalarını pozarsa, üslub pərakəndəliyinə yol verərsə, dilə ziyan vuracaq. Biz istedadlı jurnalistlərin qayğısına qalmalı, onlara meydan verməliyik ki, öz üslublarını tapa bilsinlər”,** - deyə akademik bildirib. O, Prezident İlham Əliyevin dilin inkişafı, onun təmizliyi, dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı imzaladığı sərəncamların əhəmiyyətindən də danışıb.

“Kaspi” qəzetinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva qeyd edib ki, dilin saflığının qorunması ilə əlaqədar KİV-lərdə aparılan monitorinqlər mütəmadi olmalıdır. Yetişən nəslin beynində, barmaq və göz yaddaşında sahman yaradana qədər monitorinqlər davam etməlidir. **“Azərbaycançılığın qorunmasında üç əsas amil var - Azərbaycan insanı, məkanı və bir də dilimiz. Bu üç komponent bir yerdə azərbaycançılığın həm də dövlətçiliyin ideologiyasına çevrilməsində rol oynayıb. Düşünürəm ki, bu məsələlərdə ziyalı olaraq öz səsimizi qaldırmalı, dərhal münasibətimizi bildirməliyik. Qəzetdə, jurnalda gördüyümüz orfoqrafik, üslubi səhvləri, yerində olmayan alınma sözlərlə bağlı iradlarımızı həm yazılı bildirməli, həm də zəng edib çatdırmalıyıq”,** - deyə S.Vəliyeva bildirib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyd edib ki, dilimizin saflığının qorunmasına hər zaman dövlət səviyyəsində diqqət göstərilir. Müstəqillik əldə etdikdən sonra bu istiqamətdə 30-a yaxın dövlət sənədi qəbul olunub. Bu sənədlərin hər birində dilimizin təmizliyi, onun yad təsirlərdən qorunması, Azərbaycan dilinin işləkliyinin təmin olunması əsas şərt kimi qoyulub.

ADU-nun rektoru, akademik Kamal Abdulla isə dövlət başçısının son dərəcə düşünülmüş, müdrik qərar və sərəncamlarının məhz dilimizin inkişafına xidmət etdiyini deyib. Rektor bildirib ki, ədəbi dilin normalarını pozan televiziya aparıcılarını Azərbaycan dilində kitab oxumağa məcbur etmək lazımdır.

Azərbaycan dili kafedrasının müdiri, Dövlət Dil Komissiyasının üzvü Adil Babayev aparıcılara təmənnasız olaraq gündə 6 saat nitq mədəniyyəti, ədəbi redaktə ilə bağlı dərs keçmək təklifi ilə çıxış edib.

Daha sonra qonaqlar ali məktəbin müəllim və tələbələrinin suallarını cavablandırıblar.

# Milli Məclisin növbəti iclası keçirilib

*İclasda "Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında" və "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" qanun layihələri birinci oxunuşda qəbul olunub*



***Oqtay Əsədov:** Avropa Parlamentində belə bir sənədin qəbul olunması Azərbaycan Prezidenti İlham Əliyevin prinsipial mövqeyinin nəticəsidir*

Dekabrın 18-də Milli Məclisin növbəti iclası keçirilib. İclası açan Milli Məclisin sədri Oqtay Əsədov gündəlikdəki məsələlər haqqında məlumat verib. Daha sonra Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri, Milli Məclisin deputatı Cavanşir Feyziyev Avropa Parlamentində qəbul olunmuş "Xarici fəaliyyət və təhlükəsizlik siyasəti" üzrə qətnamənin əhəmiyyətindən danışıb. O deyib ki, sənəd Azərbaycanın maraqlarına cavab verir. C.Feyziyev bildirib ki, sənəddə bütün Şərq Tərəfdaşlığı ölkələrinin, o cümlədən Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədləri tanınır. Onun sözlərinə görə, burada vurğulanır ki, Şərq Tərəfdaşlığı ölkələrində dondurulmuş münaqişələrin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. **"Qətnamənin qəbul edilməsi Avropada Azərbaycanın haqq səsinin artıq eşidilməsindən xəbər verir. Bu isə Azərbaycan Prezidentinin uzaqgörən, qətiyyətli və müdrik siyasətinin bəhrəsidir",** - deyə deputat qeyd edib.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov isə deyib ki, Avropa Parlamentində qəbul edilən sənəd, Azərbaycanla bağlı atılan addımlar vacib və gözlənilən nəticə idi: **"Bəzi beynəlxalq təşkilatlarda Azərbaycana qarşı çox hiyləgər siyasət aparılır. Bu siyasətin mahiyyəti gündəmi dəyişdirməkdir. Burada isə məqsəd Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı məsələni başqa məsələlərlə əvəz etməkdir".**

S.Seyidov bildirib ki, xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsi bu gün Avropanın ən nüfuzlu, təsiretmə imkanına malik olan Avropa Parlamentinin qətnaməsində birmənalı şəkildə öz əksini tapıb.

**"Cəmi iki il bundan öncə Avropa Parlamenti Azərbaycana qarşı ağlasığmaz dərəcədə mənfi qətnamə qəbul etmişdi. Lakin Azərbaycan iqtidarının, parlamentinin gördüyü mütəşəkkil, ardıcıl, məntiqli işlər nəticəsində belə müsbət nəticə əldə edildi. Bütün bunlar birgə görülən işlərin nəticəsidir",** - deyə komitə sədri vurğulayıb.

Məsələ ilə bağlı spiker Oqtay Əsədov bildirib ki, Avropa Parlamentində belə bir sənədin qəbul olunması Azərbaycan Prezidenti İlham Əliyevin prinsipial mövqeyinin nəticəsidir. Onun sözlərinə görə, ölkəmiz Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Avropa İttifaqı ilə fəal əməkdaşlıq edir.

**"Azərbaycanın uğurları artdıqca, ölkəmizi sevməyən qüvvələr, erməni lobbisinin vasitəsilə maliyyələşənlər Azərbaycan haqqında mənfi fikirlər formalaşdırmağa başlayırlar və "fəallaşırlar".** Bunu isə parlamentdəki çıxışında Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib. Onun sözlərinə görə, həmin anti-Azərbaycan qüvvələr açdıqları internet səhifələrində, saytlarda ölkəmizin təhlükəsizliyini, ictimai-siyasi sabitliyi hədəfə alan, həmçinin təhqiramiz fikirlər səsləndirirlər: **"Belə olan halda, biz niyə susmalıyıq?".**

S.Novruzov bildirib ki, bir qrup deputat bu təhqirlərə cavab verməklə onların səviyyəsinə düşəcəyimizi fikirləşir: **"Bu mahnını 20 ildir ki, parlamentdə eşidirəm. Kim söz demək istəmir, bir bəhanə ilə sözün altından çıxmağa çalışır. Burada oturan deputatların hər biri təhqir olunur. Onlara cavab vermək 3-5 adamın adına yazılmayıb. Ziyalı, alim, akademik, sıravi deputatların hər biri onlara cavab verməli, dövləti, dövlət başçısını, Ümummilli lideri qorumalıdır. Çünki həmin ünsürlər nə milli azadlıq hərəkatında olub, nə döyüşlərdə iştirak edib, nə də xalqın taleyüklü məsələlərində fəaliyyət göstəriblər. Müxtəlif bəhanələrlə aradan çıxaraq xaricə gediblər və Azərbaycana qarşı təxribat aparırlar".**



***Siyavuş Novruzov:** Azərbaycanda sivil, demokratik mübarizə aparmaq üçün bütün imkanlar mövcuddur*

S.Novruzov söyləyib ki, hüquq-mühafizə orqanları bu istiqamətdə araşdırma aparmalıdır: **"Bu adamların sığındığı ölkələrin müvafiq qurumlarına həmin araşdırmaların nəticələri təqdim olunmalıdır. Sual verilməlidir ki, sizin ölkənizdə dövlət çevrilişinə çağırış, silahlanmaqla bağlı fikir söylənilsə, dövlət başçıları təhqir edilsə, nə edərdiniz? Almaniyada, Fransada dövlətə qarşı məqalə və yazı yazanlar bir gecədə həbs edilirlər. Amma Azərbaycan əleyhinə bu qədər çağırış edilir. O zaman niyə onları bəsləyirsiniz? Hüquq-mühafizə orqanlarımız İnterpola konkret sənədlər təqdim etməlidir".**

Millət vəkilinin sözlərinə görə, hüquqi, sivil, demokratik mübarizədən söhbət gedirsə, bu mübarizə ölkəmizdə aparılmalıdır. S.Novruzov qeyd edib ki, Azərbaycanda sivil, demokratik mübarizə aparmaq üçün bütün imkanlar mövcuddur: **"Bu gün Azərbaycanda kifayət qədər siyasi partiyalar var ki, onlar qanun çərçivəsində mitinq keçirirlər. Demokratik mübarizənin yolu budur. Antidemokratik, qanunsuz mübarizə ilə bağlı isə hüquq-mühafizə orqanları ölçü götürməlidir. Deputatlar da bu məsələlərə mövqeyini bildirməlidir. Əgər həmin ünsürlər dövləti təhqir edirsə, bu, bütün millət vəkillərini də təhqir etmək deməkdir".**

**"Avropa Parlamenti tərəfindən qəbul edilən qətnamə hazırkı mürəkkəb beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması ilə bağlı yeni şərtlər formalaşdırır. Bu, heç şübhəsiz, ölkəmizin həyata keçirdiyi dərin strateji diplomatiya sayəsində mümkün olub. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqeyimiz üstünlük təşkil edir".** Bu fikirləri isə Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxış edərkən deyib.




Sosial şəbəkələrdə Azərbaycanın əleyhinə aparılan kampaniyalara münasibətini bildirən Hikmət Babaoğlu bu hadisələrin təsadüfi olmadığını deyib: **"Hazırda biz yeni sosium növündə yaşayırıq, bu, informasiya cəmiyyəti adlanır. Real sosial həyatdan kənarda yeni bir virtual ictimai münasibətlər sistemi formalaşıb. Biz buna, sadəcə, virtual ictimai münasibətlər sistemi deyib keçə bilərik. Amma məsələ bu qədər sadə deyil. Çünki virtual məkan real həyatımızın da keyfiyyətini və istiqamətlərini müəyyənləşdirən amillərdəndir. Ona görə də virtual məkanda ictimai münasibətlərin də hüquqi müstəvidə tənzimlənməsi çox vacibdir. Ölkəmizdə bu istiqamətdə müvafiq addımlar atılmalıdır. Almaniyada bununla bağlı qanun qəbul edilib. Bu qanun birbaşa sosial şəbəkələrlə bağlı olmasa da, federal qanunların sosial şəbəkələrdə qorunması ilə əlaqədar xüsusi polis, təhqiqat qrupları yaradılıb. Hesab edirəm ki, Azərbaycanda da kibercinayətkarlığa qarşı polis orqanlarında xüsusi qrupların yaradılması və bu hallara qarşı sosial şəbəkələrdə mübarizə aparılması vacibdir. Bizim çox nüfuzlu hüquq-mühafizə orqanlarımız var. Onlar bu hadisələrlə bağlı ictimai sifarişi gözləmədən dərhal tədbirlər görməlidirlər".**



***Hikmət Babaoğlu:** Azərbaycanda polis orqanlarında kibercinayətkarlığa qarşı xüsusi qrupların yaradılması vacibdir*

Millət vəkilinin fikrincə, ən mühüm məqam odur ki, informasiya yeni insan növü formalaşdırır: **"O, artıq milli dəyərlər üzərindən identifikasiya olunan insan növü deyil. Onlar istehlak etdiyi informasiya üzərindən özünü identifikasiya edən fərdlərdir ki, bu da yeni bir sosial baza yaradır. Bütün bunları nəzərə alaraq Azərbaycanda sistemli şəkildə addımlar atılmalı, eyni zamanda, indiki mərhələdə hüquq-mühafizə orqanları sosial şəbəkələrdə hüquqi münasibətləri tənzimləmək üçün xüsusi qruplar yaratmalıdır".**

Millət vəkili Elman Nəsirov da çıxışında qeyd edib ki, xaricdəki antimilli ünsürlərin fəaliyyətinin qarşısı alınmalıdır. Onun sözlərinə görə, hüquq-mühafizə orqanları bu yöndə fəaliyyətini gücləndirməlidir.

İclasda bəzi millət vəkilləri KİV-lərdə parlamentin fəaliyyəti ilə bağlı qeyri-obyektiv məlumatların verildiyini deyiblər. Spiker Oqtay Əsədov isə bildirib ki, jurnalistlər parlamentin fəaliyyətini, millət vəkillərinin çıxışlarını olduğu kimi işıqlandırmalıdırlar.



***Cavanşir Feyziyev:** Avropa Parlamentinin "Xarici fəaliyyət və təhlükəsizlik siyasəti" qətnaməsi Azərbaycanın maraqlarına cavab verir*

Milli Qəhrəman Mübariz Qəhrəmanov haqqında sosial şəbəkələrdə bəzi şəxslərin yanlış fikirlərinə gəlincə, O.Əsədov qeyd edib ki, belə cılız insanlara qarşı xalqımız öz münasibətini ifadə edib.

Daha sonra gündəlikdəki məsələlər müzakirə olunub. İlk olaraq, "Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun layihəsi müzakirəyə çıxarılıb. Sənəd haqqında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verib. Müzakirələr zamanı çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, Azərbaycan-Rusiya əlaqələri yüksələn xətlə inkişaf edir. Onun sözlərinə görə, bu il ərzində dövlət başçılarının 6 dəfə görüşməsi mühüm göstəricidir. Bununla belə, millət vəkili bildirib ki, Rusiyada yaşayan bəzi azərbaycanlılar qarşılıqlı dostluq münasibətləri ilə bağlı atılan addımları öz adlarına çıxmağa çalışırlar. Hansı ki, o adamlar indiyədək heç bir iş görməyiblər. Azərbaycanın ayrı-ayrı mətbuat orqanlarına müsahibə verməklə özlərini qəhrəman kimi göstərmək istəyirlər. **"Bir nəfər az qala hər gün müsahibə verir ki, Rusiya ilə əlaqələrin qurulmasında rolu olub. O adamın Rusiya mediasında Azərbaycanla bağlı yarım səhifəlik yazısı çıxıbmı? O, Rusiyada Azərbaycan diasporunun qeydiyyata alınmamasını Milli Məclisin üzərinə atır. Onun özü heç bir işlə məşğul olmur. Azərbaycan Milli Məclisinin nümayəndələri zaman-zaman Rusiyada mühüm tədbirlər keçirəndə sən harada idin? Həmin adam iddia edir ki, deputatlar onun fəaliyyətindən xəbərsizdirlər. Parlament kimin nə iş gördüyünü yaxşı bilir və qiymətləndirir. Rusiya ilə ən yaxşı dostluq münasibətləri prezidentlər, xalqlar və parlamentlər arasındadır. Burada kimsə su bulandırmağa cəhd göstərməsin",** - deyə S.Novruzov qeyd edib.

İclasda daha sonra "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Saziş, "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş), "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi (üçüncü oxunuş), Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi (üçüncü oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi (üçüncü oxunuş), Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi (üçüncü oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi (üçüncü oxunuş), "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi (üçüncü oxunuş), "Sığorta fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi (üçüncü oxunuş) haqqında qanun layihələri qəbul olunub.



***Səməd Seyidov:** Avropa Parlamentində qəbul edilən sənəd gözlənilən nəticə idi*

Sonra "Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında" və "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" qanun layihələri birinci oxunuşda müzakirəyə çıxarılıb. Hər iki sənəd haqqında parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Ə.Hüseynli deyib ki, "Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında" qanun layihəsi Konstitusiyanın 23-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Gerbinin istifadəsi qaydalarını müəyyən edir. O qeyd edib ki, Dövlət Gerbinin rəngli qabarıq təsvirinin hazırlanması və istehsalı qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir: **"Dövlət Gerbinin təsviri olan möhürlərin və blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir".**

Diqqətə çatdırılıb ki, "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" qanun layihəsi də Konstitusiyanın 23-cü maddəsinə uyğun olaraq, Dövlət Himninin ifa edilməsi, oxunması, dinlənməsi və istifadəsi hallarını və qaydalarını müəyyən edir.

Müzakirələr zamanı Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib ki, Dövlət Himninin mətni də, musiqisi də 100 il bundan əvvəl yazılıb: **"O dövrün ədəbi dilinə, publisistikasına, yazılan əsərlərə diqqət yetirsək, görərik ki, həmin dövrün ədəbi dil qaydalarına uyğundur. 300 il ərzində bəzi xalqlarda dilin 70 faizindən çoxu dəyişir. Biz 100 il bundan əvvəl yazılmış dövlət himninin mətnini bugünkü ədəbi dil normalarına uyğunlaşdıra bilmərik. Çünki bu, bizə qalan çox dəyərli mirasdır. Himnin mətnini olduğu kimi qəbul etməliyik, çünki bizim tariximizdir".**

Daha sonra iclasda "Ümumi təhsil haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Sənəd haqqında parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli məlumat verib.

Müzakirələr zamanı çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, "Ümumi təhsil haqqında" qanun layihəsi vacib sənəddir: **"Təhsil elə sahədir ki, bütün Azərbaycan vətəndaşları bu sistemlə bağlıdır. Hesab edirəm ki, orta təhsil sistemi nisbətən sadələşdirilməlidir. Şagirdləri bu qədər yükləmək olmaz".**

Deputat çıxışı zamanı yeni məktəblərin tikilməsi məsələsinə münasibət bildirib: **"Yeni məktəblər tikilməlidir. Amma harada? Elə ərazilər var ki, orada çoxlu sayda məktəblər var. Amma həmin məktəblərdə 3 uşaq oxuyur. Bu vəziyyəti də həll etmək olar. Kanadada, ABŞ-da kənar yerlərdə yaşayan uşaqları avtobusla məktəbə gətirirlər. Bizdə də bu tətbiq edilə bilər".**

S.Novruzov özəl təhsil müəssisələrinin qiymətləri ilə bağlı məsələyə də toxunub. O deyib ki, kim təhsil müəssisəsi tikirsə, özündən qiymət qoyur: **"Təhsil müəssisəsi bununla bağlı bir dəfə də hesabat vermir. İstər ali, istərsə də orta özəl təhsil müəssisələrində hər kəs istədiyi qiyməti qoyur. Heç bir əsas da göstərmir ki, qiymətlər niyə belədir? Birinin qiyməti 1000, digərinin 5000, o birinin isə 7500 manatdır. Görürük ki, bahalı məktəblərin müəllimləri dövlət məktəblərində çalışan müəllimlərdən çox məvacib almır. Belə olan halda, bu qədər maliyyə hara gedir? Bu məsələlər aydınlaşdırılmalıdır".**

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

**Nardar BAYRAMLI**

# Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri ilə ilin yekunlarına həsr olunan qəbul təşkil edilib







Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri ilə dekabrın 18-də cari ilin yekunlarına həsr olunan qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, qəbulda çıxış edən xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın 2018-ci il ərzində həyata keçirdiyi xarici siyasət və bu istiqamətdə əldə olunan nailiyyətlər barədə danışıb. Nazir əsas diqqəti ölkəmizin xarici siyasətinin prioritet məsələsi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə ayırıb. O, ölkəmizin cari il ərzində davam etdirilən uğurlu xarici siyasətinin, o cümlədən həyata keçirilən yüksək səviyyəli səfərlərin, paytaxtımızda təşkil olunan beynəlxalq tədbirlərin, qəbul olunmuş mühüm sənədlərin və imzalanmış ikitərəfli razılaşmaların nəinki bölgəmizdə, həmçinin geniş beynəlxalq müstəvidə sülh və təhlükəsizliyin, davamlı inkişafın təmin olunmasına xidmət etdiyini deyib.

Nazir ikitərəfli münasibətlərin inkişafı istiqamətində diplomatik korpusun səylərini yüksək qiymətləndirib və onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Diplomatik korpusun adından duayen qismində Fələstin Dövlətinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim çıxış edib.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək Prezident İlham Əliyevin ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun rəhbərlərinə və həmin ölkələrin dövlət başçılarına təbriklərini çatdırıb.

# Bakıda “Mənəvi dəyərlərə dövlət qayğısı İlham Əliyev siyasətinin tərkib hissəsi kimi” mövzusunda konfrans keçirilib










Dekabrın 18-də Mənəvi Dəyərlərin Təbliği Fondu “Mənəvi dəyərlərə dövlət qayğısı İlham Əliyev siyasətinin tərkib hissəsi kimi” mövzusunda konfrans təşkil edib.

AZƏRTAC xəbər verir ki, konfransda eyniadlı kitabın təqdimatı da olub.

Tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov qeyd edib ki, Azərbaycanda milli ruhun yüksəlməsində Ulu öndər Heydər Əliyevin böyük xidmətləri olub. O, Ümummilli liderin azərbaycançılıq ideologiyasının adət-ənənələrimizin qorunması baxımından çox əhəmiyyətli olduğunu deyib. Vurğulanıb ki, əsası Ulu öndər tərəfindən qoyulmuş dövlət-din siyasətini bu gün Prezident İlham Əliyev uğurla davam etdirir, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dövlət səviyyəsində qayğı göstərilir. Bu dəyərlər cəmiyyətdə milli həmrəylik, birlik ruhunu oyadır, yad təsirlərin qarşısını alır.

Bildirilib ki, kitab hazırlanarkən AZƏRTAC-ın materiallarından istifadə olunub.

Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, “SƏS” Media Qrupun rəhbəri Bəhruz Quliyev bildirib ki, Azərbaycanda mənəvi dəyərlərin qorunub saxlanılmasına böyük önəm verilir. Bu siyasətin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Sağlam cəmiyyətin formalaşdırılmasında, milli dəyərlərimizə bağlı gəncliyin yetişməsində bu siyasətin böyük rolu var. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən “SƏS” Media Qrupun rəhbəri vurğulayıb ki, bu gün mənəvi dəyərlərimizin qorunması və təbliği işi xüsusi diqqət mərkəzindədir.

Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib ki, bu gün dünyada gedən səssiz müharibədə Azərbaycan xalqının ən mühüm sipəri milli-mənəvi dəyərlərimiz və ailə institutudur. O, milli-mənəvi dəyərlərimizin təbliği işinin dövlət səviyyəsində aparıldığını diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Müxtəlif dövrlərdə milli-mənəvi dəyərlərimiz təzyiqlərə məruz qalsa da, Azərbaycan müstəqil olandan sonra mənəvi dəyərlərimiz dövlətin əsas strategiyasına çevrildi.

“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, Ulu öndər xalqda milli heysiyyəti gücləndirmək, habelə zəngin irsimizi, mədəniyyətimizi, incəsənətimizi, adət-ənənələrimizi yaşatmaq, ana dilimizi inkişaf etdirmək üçün bir sıra mühüm tədbirlər həyata keçirib. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın - azərbaycançılığın təşəkkül və inkişafında müstəsna rol oynayıb. Bu uğurlu siyasətin davamı olaraq bu gün Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasını, təbliğ və təşviq edilməsini daim diqqət mərkəzində saxlayır.

Konfransda xarici qonaq qismində iştirak edən Pakistan Dövlət Televiziyasının əməkdaşı, jurnalist Afşan Malik Azərbaycan ilə Pakistan arasındakı dostluq və qardaşlıq münasibətlərindən danışıb. Pakistanlı jurnalist qeyd edib ki, ölkələrimizi ortaq mənəvi dəyərlər birləşdirir.

Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, “Şərq” qəzetinin təsisçisi və baş redaktoru Akif Aşırlı, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev və tarix elmləri doktoru, professor İradə Hüseynova tədbirdə çıxış edərək milli-mənəvi dəyərlərimizin qorunub saxlanması istiqamətində görülən işlər barədə fikirlərini bildiriblər. Qeyd edilib ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edilməsi dövlətimizin başçısının milli-mənəvi dəyərlər sahəsinə göstərdiyi diqqət və qayğını bir daha sübut edir.

# Qida Təhlükəsizliyi Agentliyi media nümayəndələri üçün təlim keçirib




Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən jurnalistlər üçün “Qida təhlükəsizliyi üzrə media təlim”ə start verilib. Məqsəd media nümayəndələrinin qida təhlükəsizliyi sahəsində biliklərini artırmaq və Agentliyin qida təhlükəsizliyinin təbliği istiqamətində gördüyü işlər barədə ictimaiyyəti daha dolğun məlumatlandırmaqdır.

Agentlikdə 3 gün davam edəcək təlimin birinci günündə 30-a yaxın media nümayəndəsi iştirak edib. Proqramda heyvan sağlamlığı və baytarlıq sahəsində həyata keçirilən tədbirlər çərçivəsində qanunsuz heyvan kəsimi ilə bağlı görülən işlər, aparılan maarifləndirmə tədbirləri, müasir heyvan kəsimi və satışı məntəqələrinin yaradılması ilə bağlı qarşıya qoyulan əsas hədəflər jurnalistlərin diqqətinə çatdırılıb. Onlara heyvan kəsimi sahəsində beynəlxalq təcrübə və Agentliyin bu istiqamətdə atacağı addımlar barədə məlumat verilib.

Bununla yanaşı, təlimdə Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin KİV-də işıqlandırılması zamanı obyektivliyin, şəffaflığın təmin olunması və ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsində medianın rolu, qida təhlükəsizliyinin təmin olunması, heyvan sağlamlığı və baytarlıq, eləcə də bitki sağlamlığı və fitosanitar nəzarətinin təşkili, qida məhsulları sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qeydiyyat prosesi və onlarla əməkdaşlıq, bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərində aparılan dövlət nəzarəti tədbirləri barədə media nümayəndələrinə ətraflı məlumat veriləcək.

AQTA-nın rəhbər şəxsləri və mütəxəssislərinin təqdimatları ilə davam edəcək təlimlərdə jurnalistlər qida təhlükəsizliyi sahəsində təbliğat və maarifləndirmə, sağlam qidalanmanın təşviqi istiqamətində Agentliyin gördüyü işlər barədə ətraflı məlumatlandırılacaqlar. Təqdimatlardan sonra sual-cavab sessiyasında media nümayəndələrini maraqlandıran suallar cavablandırılacaq.

Qeyd edək ki, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi əhalinin sağlam qida ilə təmin olunması və qida təhlükəsizliyi sahəsində maarifləndirilməsində media institutları ilə sıx əməkdaşlıq edir və jurnalistlərin bu sahədə biliklərinin artırılmasını daim diqqət mərkəzində saxlayır.

**MÜŞFİQƏ**

# Cenevrədə Azərbaycanın innovativ və yüksək texnologiyalar üzrə startaplarına həsr olunan tədbir keçirilib









Dekabrın 18-də İsveçrənin Cenevrə şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) baş qərargahında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirin ilk hissəsində innovativ və yüksək texnologiyalı startaplara həsr edilmiş sərginin rəsmi açılışı olub. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əqli Mülkiyyət Agentliyi, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı və Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) birgə təşkilatçılığı ilə keçirilən sərgidə Azərbaycan startapçılarının hazırladığı 16 layihə təqdim olunub.

Tədbirdə ÜƏMT-nin, BTİ-nin nümayəndələri, Cenevrədə akkreditə olunmuş diplomatlar, beynəlxalq təşkilatların, akademik və biznes dairələrinin təmsilçiləri iştirak ediblər.

Sərginin açılışında nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktoru Frensis Qarri, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Hulin Zao, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov, təhsil nazirinin müavini İdris İsayev çıxış ediblər.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə çıxışında bildirib ki, bu gün innovativ inkişaf Azərbaycanın iqtisadi siyasətinin əsas tərkib hissələrindən biridir. O, innovativ inkişaf sahəsində Azərbaycanda görülən tədbirlər və aparılan islahatlar, dövlət tərəfindən həyata keçirilən layihələr və eyni zamanda, özəl sektorun bu sahədə fəaliyyəti barədə danışıb. Eyni zamanda, startaplar da daxil olmaqla kiçik və orta sahibkarlara dövlət dəstəyinin göstərildiyi, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və Yüksək Texnologiyalar Parkının yaradıldığı qeyd edilib. Ölkəmizin ixrac potensialının gücləndirilməsi, əlverişli investisiya mühitinin formalaşdırılması, innovasiya fəaliyyətinin genişləndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu gün Azərbaycanın startapları beynəlxalq müsabiqələrdə iştirak edir, yer tutur və müxtəlif sektorlarda perspektivli layihələr kimi tətbiq olunur. Bu yaxınlarda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması da dövlətin bu sahəyə diqqətinin təzahürüdür. İnnovasiya Agentliyinin qarşısında texnologiyaların transferi, startap hərəkatının genişləndirilməsi, innovativ layihələrin maliyyələşdirilməsi, ölkəmizdə innovasiya ekosisteminin formalaşdırılması və inkişaf etdirilməsi kimi bir çox vacib vəzifələr qoyulub.

Nazir, həmçinin bildirib ki, Azərbaycan innovasiya və yüksək texnologiyalar üzrə beynəlxalq səviyyədə qazanılmış təcrübədən faydalanmağa və bu sahə üzrə əsas beynəlxalq təşkilatlar olan ÜƏMT və İTU ilə əməkdaşlığı daha da dərinləşdirməyə hazırdır.

ÜƏMT-nin baş direktoru Frensis Qarri əqli mülkiyyət sahəsində Azərbaycanda əldə edilmiş uğurları qeyd edib, qanunvericilik bazasının inkişaf etdirilməsinin ölkənin iqtisadi-sosial həyatı üçün mühüm rol oynadığını vurğulayıb.

BTİ-nin baş katibi Hulin Zao çıxışında təmsil etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyini deyib, Azərbaycanın bu təşkilatın fəaliyyətində yaxından iştirakını, xüsusilə də bu yaxınlarda təşkilatın rəhbər orqanlarına üzv seçilməsini məmnunluqla qeyd edib. Bildirib ki, Azərbaycan müasir texnologiyalar sahəsinə xüsusi diqqət verən bir ölkə kimi beynəlxalq nəqliyyat dəhlizləri üzərində innovativ haba çevrilməkdədir.

Hər iki rəhbər şəxs Azərbaycan hökumətini və xalqını Cümhuriyyətin 100 illiyi münasibətilə təbrik edib.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov çıxışında bildirib ki, bu gün Azərbaycan dərin islahatların aparıldığı bir ölkədir. Sosial və iqtisadi sahədə ciddi irəliləyişlər bir çox istiqamətlərdə, xüsusilə qeyri-neft sektoru, kənd təsərrüfatı və digər sənaye sahələrində maliyyə sabitliyinin və iqtisadi artımın bərpasına və təmin olunmasına imkan yaradır. Bu gün Azərbaycan innovativ inkişaf yolundadır və bütün bunlar beynəlxalq hesabatlarda da öz əksini tapır. Dünya Bankının son “Doing Business” hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci yeri tutub. Reytinqdə Azərbaycan 10 mövqedən 8-də öz göstəricilərini yaxşılaşdırıb, dünyada islahatların sayına görə öncül mövqeyə çıxıb. Eyni zamanda, ölkəmiz dünyanın 10 ən çox islahat aparan dövləti siyahısına daxil edilib.

Təhsil nazirinin müavini İdris İsayev bildirib ki, uğurlu inkişafın təməlində bilikyönümlü cəmiyyətin və rəqabətqabiliyyətli mühitin texnoloji innovasiyalarla tamamlanması dayanır. Bu istiqamətdə elm və təhsilin rolu danılmazdır. Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət siyasətinin əsas prioritetlərindən biri bilik iqtisadiyyatının formalaşdırılmasıdır. Bu məqsədlə də milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində ali təhsil müəssisələrində “təhsil-tədqiqat-innovasiya” formatında inkişafın təşviqi həyata keçirilir.

Çıxışlardan sonra beynəlxalq təşkilatın rəhbərləri və nümayəndələr Azərbaycan startapçılarının hazırladıqları layihələrə baxıblar. Kənd təsərrüfatı, səhiyyə, sənaye, turizm və digər sektorları əhatə edən və uğurlu perspektivlər vəd edən innovativ layihələr böyük maraqla qarşılanıb.

* * *

Sərginin açılışından sonra ÜƏMT-nin binasında “Azərbaycanda əqli mülkiyyətin inkişafı və onun regiona təsiri: innovativ və yüksək texnologiyalar üzrə startapların təqdimatı” adlı konfrans keçirilib.

Konfransı açan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının inkişaf edən ölkələrlə əməkdaşlıq şöbəsinin müdiri Mihal Svantner beynəlxalq təşkilatla Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyini bildirib. Qeyd edilib ki, Azərbaycan əqli mülkiyyət hüququnun bütün sahələrində qanunvericilik bazasını inkişaf etdirib və qanunvericilik təkmilləşdirilir. Təmsil etdiyi təşkilat həm müəllif hüququ, həm də əqli mülkiyyətin digər sahələrində Azərbaycanla məsləhətləşmələr aparır və əməkdaşlıq inkişaf etdirilir.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə çıxışında Azərbaycanın XIX əsrin sonu və XX əsrin əvvəllərindən başlayaraq keçdiyi texnoloji inkişafdan bəhs edib. Qeyd edilib ki, ölkədə baş vermiş ilk neft bumu ilə əlaqədar olaraq Azərbaycan müasir texnologiyaların istifadə məkanına çevrilib. Sənaye üsulu ilə ilk neft buruğu, ilk dəfə dənizdə qazılmış quyudan neft hasilatı, dövrünün ən innovativ layihələrindən olan “Neft daşları” Azərbaycanın texnoloji inkişaf tarixinin səhifələridir və bu inkişaf gündəlik həyatın digər sahələrini də əhatə edib. XX əsrin 60-70-ci illərində və müstəqillik dövründə Azərbaycanda informasiya texnologiyalarının inkişafına xüsusi diqqət verilib. Bu gün Azərbaycanda inkişaf etmiş telekommunikasiya infrastrukturu qurulub, ən müasir texnologiyalar, xidmətlər təqdim olunur.

Bildirilib ki, Azərbaycanda innovativ inkişaf ölkənin inkişaf prioritetlərindəndir və bu məsələlər hökumət tərəfindən dəstəklənir. Həm institusional, həm də iqtisadi islahatlar çərçivəsində ölkədə innovasiya ekosisteminin qurulması, startapların inkişafı üçün ciddi addımlar atılır, kiçik və orta sahibkarlıq inkişaf etdirilir, texnoparklar, maliyyə fondları fəaliyyət göstərir, vergi və gömrük güzəştləri tətbiq olunur. Həmçinin startapların biznes ideyalarının reallaşdırılmasına kömək göstərilir, onlara müsabiqə əsasında qrantlar ayrılır və güzəştli kreditlər verilir, universitetlərdə biznes inkubatorlar yaradılır.

Azərbaycanın Cenevrədəki beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Vaqif Sadıqov çıxışında Azərbaycanla Cenevrədəki beynəlxalq təşkilatlar arasında uğurlu əməkdaşlığın mövcud olduğunu qeyd edib və Azərbaycan cəmiyyətinin yeni nəslinin uğurlarının nümayiş etdirilməsi üçün yaradılan şəraitə görə təşəkkür edib. O bildirib ki, təqdim olunan sərgi sayəsində Azərbaycanın innovativ texnologiyalar və startaplar sahəsində əldə etdiyi uğurlar və ölkənin bu istiqamətdə yeni siması ilə tanış olmaq mümkündür.

Sonra əqli mülkiyyət siyasəti, akademik təsisatların (universitet və araşdırma institutları) əqli mülkiyyət siyasətinin təşkili, İKT bazalı ekosistemlərin inkişafında startapların rolu, kiçik və orta sahibkarların davamlı iqtisadi inkişaf üçün əhəmiyyəti və digər mövzularda məruzələr dinlənilib. Konfransda, həmçinin Azərbaycanın son 25 ildə transformasiya, əqli mülkiyyət, innovasiya və yüksək texnologiyalar sahəsində əldə etdiyi nailiyyətlərdən bəhs edən çıxışlar edilib.

Konfrans iştirakçıları, həmçinin ÜƏMT-də təşkil olunmuş sərgi ilə tanış olublar.

# Azərbaycan səfiri İspaniyanın Diplomatiya Akademiyasının fəxri akademiki adına layiq görülüb



İspaniya Krallığı Diplomatiya Akademiyasının Madrid şəhərindəki mənzil-qərargahında bu akademiyanın yeni fəxri akademiklərinin təltif olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə akademiyanın icraçı prezidenti Santiyaqo Velo de Antelo, idarə heyətinin üzvləri, İspaniya Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin yüksəkvəzifəli şəxsləri, İspaniyanın xarici ölkələrdəki səfirləri, bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və digər tanınmış şəxslər iştirak ediblər.

İspaniyanın xarici ölkələrdəki səfirləri və İspaniya Krallığının xarici işlər nazirlərinin təşəbbüsü və səyləri nəticəsində təsis edilmiş akademiya diplomatiya və beynəlxalq münasibətlər sahəsində ölkənin ən mötəbər qurumlarından biridir.

Tədbiri açan akademiyanın icraçı prezidenti Santiyaqo Velo de Antelo həm İspaniyanın xarici ölkələrdəki səfirləri, həm də bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri üçün akademiyanın ən ali - fəxri akademik mükafatının təsis edildiyini bildirib. O qeyd edib ki, xarici ölkələrin İspaniyada akkreditə olunmuş səfirlərinin öz ölkələri ilə İspaniya arasında əlaqələrin inkişafına verdikləri töhfə fəxri akademik mükafatla təltif edilərkən əsas meyar kimi götürülür.

Tədbir zamanı İspaniyada akkreditə olunmuş dörd ölkənin - Azərbaycan, Avstriya, Rumıniya, Ekvatorial Qvineyanın səfirləri akademiyanın yeni fəxri akademiki adına layiq görülüblər. S.Velo de Antelo İspaniya ilə digər dövlətlər arasında münasibətlərdən bəhs edərək, Azərbaycanda hərtərəfli inkişaf fonunda əldə olunan nailiyyətlərin ölkələrimiz arasında münasibətlərin daha da inkişafına xidmət etdiyini vurğulayıb.

Azərbaycanın İspaniyadakı səfiri Anar Məhərrəmov fəxri akademik adına layiq görüldüyü üçün İspaniya Krallığı Diplomatiya Akademiyasının icraçı prezidentinə və idarə heyətinin üzvlərinə minnətdarlığını bildirib. O, Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi strategiyaya uyğun olaraq ölkəmizlə İspaniya arasında münasibətlərin bu gün yüksələn xətt üzrə inkişaf etdiyini söyləyib.

Sonda fəxri akademik adına layiq görülmüş şəxslərə İspaniya Krallığı Diplomatiya Akademiyasının fəxri diplomu və nişanları təqdim edilib.

# Fondun Müşahidə Şurasının növbəti iclası keçirilib



Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Müşahidə Şurasının sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq gündəlik barədə məlumat verib:

*1. Fondun 2019-cu ilin I rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqi;*

*2. Cari məsələlər.*

Şuranın sədri Həsən Həsənov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İcraçı direktor V.Səfərli yeni dövrün tələblərindən irəli gələrək müsabiqə qaydalarında müəyyən əlavə və dəyişikliklərin edilməsi zərurəti ilə əlaqədar KİV-lərə maliyyə yardımının 6 ay deyil, 3 ay müddətinə ayrılmasını təklif edib. V.Səfərli həmçinin bildirib ki, yeni qaydalar hazır olana qədər qəzetlər müsabiqəyə sənədləri mövcud şərt və meyarlar əsasında təqdim edəcəklər.

İcraçı direktor 2019-cu ilin I rübü üzrə KİV-lərə maliyyə yardımı müsabiqəsinin dekabrın 19-dan 27-dək "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası" əsasında 19 istiqamət üzrə keçiriləcəyini bildirib.

Müşahidə Şurasının üzvləri müzakirə olunan məsələ ilə bağlı rəy və təkliflərini bildiriblər. Şuranın sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Cəmaləddin Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov, Rasim Həsənov və Ayaz Mirzəyev çıxış edərək Fondun maliyyə yardımı müsabiqələrinin çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd ediblər. Daha sonra müsabiqə elanı səsə qoyularaq təsdiq edilib.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor Vüqar Səfərli Fondun perspektiv fəaliyyət istiqamətləri barədə məlumat verib.

## Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə

## ELANI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 2019-cu ilin I rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elan edir.

"Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na müvafiq olaraq Fondun Müşahidə Şurasının rəyi əsasında aşağıdakı istiqamətlər üzrə KİV layihələrinin maliyyələşdirilməsi **qərara alınmışdır:**

**1. Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu**

**2. Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

**3. İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

**4. İctimai və dövlət maraqlarının müdafiəsi**

**5. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

**7. Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması**

**8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**9. Azərbaycançılıq ideyasının təbliği**

**10. Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

**11. İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

**12. Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

**13. Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

**14. Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

**15. Uşaq və gənclərin fiziki və mənəvi inkişafı**

**16. Ekologiya və ətraf mühitin mühafizəsi**

**17. Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi**

**18. Elm və təhsilin inkişaf etdirilməsi**

**19. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

### MÜSABİQƏDƏ AŞAĞIDAKI KİV-LƏR İŞTİRAK EDƏ BİLƏRLƏR:

**- müsabiqə elan olunan günədək son 3 ildə müntəzəm nəşr olunan, dövriliyi həftədə 1 dəfədən, səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 2500 nüsxədən az olmayan, hər buraxılışından ən azı 1000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan qəzetlər.**

### AŞAĞIDAKI KİV-LƏRİN MÜSABİQƏDƏ İŞTİRAKINA İCAZƏ VERİLMİR:

- Azərbaycan Jurnalistlərinin I Qurultayında qəbul olunmuş Azərbaycan jurnalistlərinin peşə (etik) davranış qaydalarını pozması ilə əlaqədar haqqında Azərbaycan Mətbuat Şurası tərəfindən müvafiq qərar çıxarılanlar;
- Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"ya düşən qəzetlər
- Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"dan çıxarılan qəzetlər (1 il müddətində)
- Azərbaycan Mətbuat Şurası tərəfindən xəbərdarlıq almış qəzetlər (6 ay müddətində)
- barələrində məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olanlar;
- əsasən reklam və erotik xarakterli materiallar dərc edənlər;
- təsisçisi dini qurumlar və dini icmalar olanlar;
- xarici dövlətlərin hüquqi və fiziki şəxsləri tərəfindən təsis edilən, nizamnamə kapitalında xarici dövlətlərin hüquqi şəxslərinin və ya vətəndaşlarının payı olanlar;
- xüsusi məqsədlər üçün buraxılan, pulsuz və aşağı qiymətlərlə çap məhsulu yayanlar;
- təsisçiləri dövlət orqanları olanlar;

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

### MALİYYƏ YARDIMININ ŞƏRTLƏRİ:

- layihə təklifi müsabiqə istiqamətlərindən birinə uyğun olmalıdır;
- ərizə forması, layihə və ona əlavə olunmuş sənədlər müsabiqə qaydalarına və tələblərinə cavab verməlidir.

Hər layihə üçün maksimum məbləğ **30 000 (otuz min) manat** müəyyən edilmişdir.

Hər KİV bir layihə təqdim edə bilər.

**Sənədlər 2018-ci il dekabr ayının 19-dan 27-dək, rəsmi iş günləri saat 10:00-dan 16:00-dək Fondun ofisində qəbul olunur.**

**Sənədlər Fonda şəxsən təqdim edilməlidir.**

Ərizə yalnız Fondun təsdiq etdiyi formada, müvafiq əlavələrlə, Azərbaycan dilində, çap və elektron variantda (CD diskdə, Times New Roman12 şriftində) təqdim edilməli və Fondda qeydiyyatdan keçməlidir.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:**

| № | Tələb olunan sənədlər | Forması |
|---|---|---|
| 1. | Layihə təklifi və fəaliyyət planı | Çap formasında, 3 nüsxədə. Elektron formada (Times New Roman şriftində, diskdə) |
| 2. | Ərizə forması (Layihənin istiqaməti göstərilməklə) | Çap və elektron formada, diskdə |
| 3. | KİV-in müvafiq dövlət orqanında uçota götürülməsini təsdiq edən sənəd | Surəti |
| 4. | VÖEN | Surəti |
| 5. | KİV-in borcunun olmadığını təsdiq edən sənəd | Bankdan arayış |
| 6. | Redaksiya əməkdaşlarının sayı (elektron əmək müqaviləsi bildirişi), layihənin icrasına cəlb ediləcək əsas əməkdaşların, məsul şəxslərin tərcümeyi-halı (CV) və işinin təsviri | Çap və elektron formada |
| 7. | KİV-in son 6 ayda satış və abunə yayımı haqda yayım orqanından sənəd | Çap formasında (imzalanmış və möhürlənmiş) |

Müsabiqə ilə bağlı əlavə məlumatı **www.kivdf.gov.az** saytından və Fondun ofisindən əldə edə bilərsiniz.

**Ünvan: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə.**

**Azərbaycan Mətbuat Evi, 3-cü mərtəbə.**

**Telefon:** 012 537 19 45; 012 537 19 41

info@kivdf.gov.az

Layihə təklifləri ilə bağlı nəticələr haqqında izahat verilmir, müsabiqəyə təqdim olunmuş sənəd və materiallar geri qaytarılmır.

# Vüqar Rəhimzadə: Milli Ordumuzun güclü, qüdrətli olması işğal altındakı torpaqlarımızın azad edilməsinə gedən yoldur



Ordunun güclü, qüdrətli olması Azərbaycan dövlətinin güclü və qüdrətli olması deməkdir. Təbii ki, ordu ilə bağlı qarşıya qoyulan vəzifələr prioritetdir. Buna nail olmaq üçün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə kifayət qədər lazımi tədbirlər görülür və qərarlar verilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri KİV-ə açıqlamasında "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Baş redaktorun sözlərinə görə, Azərbaycan Ordusunun şəxsi heyətinin əhval-ruhiyyəsi, döyüş qabiliyyəti, maddi-texniki təminatı yüksək səviyyədədir: **"Azərbaycan Ordusunun dünyanın ən güclü 50 ordusu sırasında olması adi bir fikir, söz deyil. Hətta el arasında belə bir deyim var: Ordun varsa yurdun var, ordun yoxsa, yurdun yoxdur.**

**Milli Ordumuzun güclü, qüdrətli olması işğal altındakı torpaqlarımızın azad edilməsinə gedən yoldur. Bu baxımdan, Prezident İlham Əliyevin ordu quruculuğuna xüsusi diqqət göstərməsi, dövlətimizin başçısı tərəfindən yüzlərlə hərbi qulluqçunun mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan ardıcıl addımlar çox vacib məsələdir. Bu baxımdan, Prezident İlham Əliyevin Sabunçu rayonunda hərbçilərə yeni mənzillər verilməsi mərasimində iştirakı və mənzillərin orderlərini hərbi qulluqçulara şəxsən təqdim etməsi onlara dövlət səviyyəsində diqqət və qayğının bariz nümunəsidir".**

# Pakistan Dövlət Televiziyasının jurnalisti "İki sahil" qəzetinin redaksiyasında olub

Pakistan Dövlət Televiziyasının jurnalisti, siyasi analitik, ədəbiyyat üzrə fəlsəfə doktoru, professor Əfşan Məlik "İki sahil" qəzetinin qonağı olub.



Qonağı salamlayan "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycanda mətbuatın inkişafı və "İki sahil" qəzetinin fəaliyyəti barədə məlumat verib. Ölkəmizdə KİV-in inkişafına qayğının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu diqqətə çatdıran Vüqar Rəhimzadə əlavə edib ki, Azərbaycanda söz və mətbuat azadlığı ən yüksək səviyyədə təmin edilib.

Vüqar Rəhimzadə, həmçinin bildirib ki, Pakistan-Azərbaycan əlaqələri bu gün sürətlə inkişaf edir.

Pakistan Dövlət Televiziyasının jurnalisti Əfşan Məlik xoş və səmimi münasibətə görə "İki sahil" qəzetinin rəhbərliyinə öz minnətdarlığını bildirib.

Ölkələrimizin bir-birinə ayrılmaz tellərlə bağlı olduğunu deyən qonaq bildirib ki, bu gün Pakistanın hər bir vətəndaşı Azərbaycanı qardaş ölkə kimi tanıyır və qəbul edir.

Ə.Məlik, həmçinin ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji və s. sahələrdə sürətlə inkişafının hər iki dövlət üçün önəmindən danışıb. Bildirib ki, Pakistan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanın haqlı mövqeyini və ölkəmizin ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən birinin məhz Pakistan olduğunu diqqətə çatdıran Ə.Məlik qeyd edib ki, Azərbaycan hər zaman Pakistana qardaş, doğma ölkədir.

Qonaq Azərbaycanda mətbuatın inkişafı məsələlərinə də toxunub və bu prosesin sürətlə getdiyini bildirib. Həmçinin "İki sahil" qəzetinin fəaliyyətini yüksək qiymətləndirib və gələcək əməkdaşlıq əlaqələrindən danışıb.

Görüşdə qarşılıqlı perspektiv layihələrin həyata keçirilməsinin zəruriliyi ilə bağlı fikir mübadiləsi də aparılıb.

# Ölkə üzrə pambıq tədarükü 228 min tonu ötüb



Ölkə ərazisində yağmurlu hava şəraitinin törətdiyi çətinliklərə baxmayaraq, pambıqçılar tarlalarda məhsulu son qozasınadək yığmağa çalışırlar.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 18-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 228003 ton məhsul təhvil verilib. Bu, keçən ilin eyni dövrü ilə müqayisədə 12,2 faiz çoxdur.

Qeyd edək ki, bu il Azərbaycanda 22 rayonda 132 min 512 hektarda pambıq əkini aparılıb. Ölkə üzrə ən çox pambıq Saatlı (15 min 815 hektar), İmişli (13 min 645 hektar), Sabirabad (13 min 55 hektar), Biləsuvar (12 min hektar), Ağcabədi (10 min hektar), Bərdə (9 min 630 hektar) və Beyləqan (9 min 560 hektar) rayonlarında əkilib. Pambıq əkinlərinin 2/3 hissəsi bu rayonların payına düşür.

Bugünədək pambıq yığımında Saatlı (30 min 58 ton), Bərdə (24 min 962 ton), Ağcabədi (22 min 825 ton), Biləsuvar (21 min 773 ton) və Beyləqan (21 min 281 ton) rayonları irəlidə gedir.

Prezident İlham Əliyevin 2017-ci il 13 iyul tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda xam pambıq istehsalının 500 min tona çatdırılması nəzərdə tutulur.

# Paşinyana yaxın KİV Rusiyanı hədəfə alıb

*İşğalçı ölkədəki bəzi media orqanları Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının Ermənistana lazım olmadığını iddia edirlər*



Ermənistan mətbuatında ictimai rəyin anti-Rusiya əhval-ruhiyyəsi üstündə köklənməsi prosesi davam edir. Belə ki, erməni saytlarında və qəzetlərində Rusiyanı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT-ni) hədəfə alan, hətta şəxsən Rusiyanın dövlət başçısı Vladimir Putinə, Belarusun prezidenti Aleksandr Lukaşenkoya və Qazaxıstan prezidenti Nursultan Nazarbayevə qarşı kəskin tənqidi yazılar yer almaqdadır. Bu məsələdə əvvəlki təsnifatda amerikapərəst media hesab olunan, hazırda isə N.Paşinyanı müdafiə edən "armenianreport", "1in.am", "Iragir.am" və digər saytlar daha fəal görünür.

Məsələn, "1in.am" saytında gedən yazıda müəllif N.Paşinyanı seçkilərdə "qələbə qazandığına" görə təbrik etməyən Rusiya prezidentini və şərti olaraq "Avrasiya klubu" adlandırılan quruma üzv olan keçmiş sovet respublikalarının rəhbərlərini kəskin tənqid edib. "Lragir.am" saytı isə A.Lukaşenkonun Rusiya mətbuatına verdiyi müsahibədə dediyi "bütün işləri Paşinyan qaynatdı" ifadəsinə cavab olaraq Belarus prezidenti başda olmaqla "Avrasiya klubu"ndakı dövlət başçılarını Ermənistanın maraqları və təhlükəsizliyinə biganə qalan "qocalar" adlandırıb. Rusiya və Belarus prezidentlərinə qarşı kampaniya çərçivəsində "1in.am" saytında gedən digər bir yazıda isə müəllif V.Putini və A.Lukaşenkonu sərt şəkildə tənqid edib. Paşinyana yaxın bu və ya digər saytlarda KTMT-nin hazırda Ermənistanın maraqlarına cavab verməməsi, müharibə başlayacağı halda üzv ölkələrin işğalçı dövləti dəstəkləməyəcəkləri haqda fikirlər də gündəmə gətirilir.

Paşinyana yaxınlığı ilə seçilən media orqanlarının "aktual" mövzularından biri isə Rusiyanın Gümrüdə yerləşən 102-ci hərbi bazasının taleyi ilə bağlıdır. Belə ki, bəzi media orqanları bu bazanın Ermənistana lazım olmadığı haqda fikirlərə yer verməkdən belə çəkinmirlər. Məsələn "Sosial ədalət" adlı qeyri-hökumət təşkilatının sədri Arşak Qasparyan "Iragir.am" saytına verdiyi müsahibəsində 102-ci hərbi bazanın fəaliyyəti, əsgərlərin şəxsi və peşəkar keyfiyyətləri barədə məlumatsızlığın hökm sürdüyünü deyib.

Öz növbəsində "armenianreport.com" saytı da "Ölüm bazası" adlı anti-Rusiya təbliğatına hesablanmış material dərc edib. Gümrüdə öldürülən erməni qadını ilə bağlı yazıda müəllif Romella Mnatsakanyan bəzi siyasi partiya nümayəndələrinin Rusiyanın Yerevandakı səfirliyi qarşısında keçirilən etiraz aksiyasından bəhs edib: **"Rusiya hərbi bazasının Gümrüdən çıxarılması tələbini səsləndirməyə başlamalıyıq. Ona görə ki, indiyə qədər rus əsgərləri tərəfindən cinayət halları olub. Onlar bizim hər birimizi güllələməyə həmişə hazırdırlar. Yalnız əmr gözləyirlər".**

Onu da qeyd edək ki, kampaniya xarakteri alan bu əks-təbliğat Rusiyada əks-reaksiya doğurub. Belə ki, son dövrlər Rusiya mediasında da N.Paşinyan komandasına qarşı bəzi tənqidi yazılar görmək mümkündür. Rusiya mətbuatında gedən yazılarda Gümrü şəhərində adi məişət zəminində baş verən hadisənin araşdırılmadan siyasiləşdirilməsi də təəccüblə qarşılanır.

Bununla belə, bəzi yazılarda son seçkilərdən sonra Ermənistanın qonşuları ilə münasibətlərin hansı vəziyyətdə olacağı barədə suallara cavab axtarılır. Məsələn, "Sankt-Peterburqskie vedomosti" qəzetində gedən "Məxməri inqilab"ın sonuncu aktı" sərlövhəli analitik yazıda indiki durumda Paşinyanın xarici siyasət kursunu dəyişmək istəsə də, çətinlik çəkəcəyi qeyd edilir. Məhz bu baxımdan N.Paşinyanın indiyə qədər sıx əlaqədə olduğu dövlətlərlə münasibətlərinin daha da gərginləşəcəyi ehtimal edilir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

www.kivdf.gov.az

## Cari il ərzində aparılan tikinti-quraşdırma işləri nəticəsində 113 yaşayış məntəqəsi təbii qazla təmin edilib

*Hazırda respublika üzrə qazlaşdırma səviyyəsi 95,2 faizə, təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 173 min 748-ə çatıb*



Məlum olduğu kimi, öz inkişafına görə regionun lider dövləti olan Azərbaycanda əldə edilən uğurlardan bütün sahələrə, o cümlədən şəhər, rayon, qəsəbə, hətta ucqar kəndlərə belə pay düşüb. Heç şübhəsiz, bu istiqamətdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində görülən işlər xüsusi önəm kəsb edir. Belə ki, məhz bu proqramlar çərçivəsində ötən 15 il ərzində regionlarda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, həmçinin bölgələrdə istər qazlaşdırma, istər elektrik enerjisi ilə təminat, istərsə də digər kommunikasiya və xidmət sahələrinin yüksək səviyyəyə çatması istiqamətində mühüm addımlar atılıb. Yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı həyata keçirilən işlərdən söz düşmüşkən, vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda ölkənin qazlaşdırılması ilə bağlı verilmiş tapşırıqların icrası istiqamətində görülmüş işləri qənaətbəxş qiymətləndirib.

Öz növbəsində, bu istiqamətdə görülən işlərə cavabdeh qurum olan SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı davamlı tədbirlər görülür. Bu barədə KİV-ə müsahibəsində "Azəriqaz" İB-in ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbalayev bildirib. Onun sözlərinə görə, hazırda respublika üzrə qazlaşdırma səviyyəsi 95,2 faizə, təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 173 min 748-ə çatıb, aparılan tikinti-quraşdırma işləri nəticəsində bu il Ağstafa, Ağcabədi, Ağsu, İsmayıllı, Bərdə, Tərtər, Zərdab, Kürdəmir, Qax, Quba, Şabran, Siyəzən, Şəmkir, Şamaxı, Şəki, Göyçay, Göygöl, Goranboy, Gədəbəy, Oğuz, Ucar, Xaçmaz, Beyləqan, Yevlax, Lerik, Lənkəran, Sabirabad, Saatlı, Salyan, Neftçala, Cəlilabad, Masallı rayonları üzrə 113 yaşayış məntəqəsi təbii qazla təmin edilib və 321 çoxmərtəbəli bina üzrə təbii qazın açılması təmin olunub. Qeyd olunub ki, qazlaşma proqramına əsasən, cari il ərzində respublikanın regionlarında 42 inzibati rayon üzrə 79 yaşayış məntəqəsinin, o cümlədən Tərtər rayonunun cəbhə bölgəsindəki 8 yaşayış məntəqəsinin, Ağdam, Ağcabədi və Sabirabad rayonlarında məcburi köçkünlərin məskunlaşdığı 4 qəsəbənin qazlaşdırılması həyata keçirilməlidir.

O da bildirilib ki, cari ilin yanvar-noyabr ayları ərzində "Azəriqaz" İstehsalat Birliyində əhali sektoru üzrə 81 min 107 yeni abonent qeydiyyata alınıb. Bunun da 45 min 543-ü Bakı, Abşeron və Sumqayıt, 35 min 564-ü isə regionlar üzrədir.

Eyni zamanda, istehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün birlik tərəfindən bu ilin yanvar-noyabr ayları ərzində 2 min 959 kilometr yeni qaz kəməri quraşdırılıb, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 240 kilometr qaz kəməri əsaslı təmir olunub.

Yeni qazlaşdırılan bütün yaşayış məntəqələrində şəbəkənin qurulması "birpilləli" tənzimləmə sistemi əsasında aparılıb ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicisindən istifadə etməsinə və istehlakçılara verilən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Beləliklə, yuxarıda da vurğulandığı kimi, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası istiqamətində SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən respublika ərazisində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması, həmçinin uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin yenidən "mavi yanacaq"la təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində respublikanın qaz təchizatı şəbəkəsi genişləndirilir və müasirləşdirilir. Birlikdən verilən məlumata görə, dekabrın arxada qalan günlərində də bu istiqamətdə görülən məqsədyönlü tədbirlər davam etdirilib. Bu məqsədlə dekabrın 6-da Qəbələ rayonunun Kötüklü və Mıxlıqovaq kəndlərinə ilk dəfə təbii qazın verilməsi münasibətilə tədbir keçirilib.

Rayon İcra Hakimiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə bildirilib ki, ümumilikdə 1082 fərdi evdən ibarət olan kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 119 min 537 metr müxtəlif diametrli metal, polietilen borularla daşıyıcı və paylayıcı qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında birpilləli tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Eyni zamanda, dekabrın 7-də Şəki rayonunun Çayqaraqoyunlu kəndinə təbii qazın verilməsi sakinlərin böyük sevincinə səbəb olub. Bu məqsədlə keçirilən tədbirdə bildirilib ki, ümumilikdə 412 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 34 min 759 metr olan müxtəlif diametrli polad borularla daşıyıcı, paylayıcı qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında birpilləli tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Qeyd edək ki, bu ay ərzində həmçinin Qobustan rayonunun iri yaşayış məntəqələrindən olan, 2042 nəfərin yaşadığı Şıxzahirli kəndinə təbii qaz verilib. Kəndin qazlaşdırılması zamanı 11 min 219 metr polad borularla xətt çəkilib, hər bir evə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yaşayış məntəqəsinə təbii qazın verilməsi ilə əlaqədar dekabrın 11-də kənddə açılış mərasimi keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov və Ağsu Regional Qaz İstismar İdarəsinin rəisi Namiq Məmmədov mərasimdə çıxış edərək, ölkəmizdə sosial-iqtisadi sahələrdəki sürətli inkişafdan, regionlarda, o cümlədən Qobustan rayonunda həyata keçirilən sosial layihələrdən danışıblar. Qeyd olunub ki, artıq Qobustanda 23 yaşayış məntəqəsi qazlaşdırılıb, əhalinin 97 faizi "mavi yanacaq"la təmin edilib.

Təbii qaz verilən yaşayış məntəqələri arasında Zaqatala rayonunun Lahıc kəndi də var. Dekabrın 13-də bu münasibətlə keçirilən tədbirdə bildirilib ki, ümumilikdə 455 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün "birpilləli" sistem əsasında ümumi uzunluğu 24 min 751 metr müxtəlif diametrli metal və polietilen borularla daşıyıcı, paylayıcı qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "birpilləli" tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Dekabrın 14-də İmişli rayonunun Qızılkənd kəndinə təbii qazın verilməsi sakinlərin böyük sevincinə səbəb olub. Keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyindən bildirilib ki, ümumilikdə 652 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 37 min 862 metr olan müxtəlif diametrli polad, polietilen borularla daşıyıcı, eləcə də paylayıcı qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "birpilləli" tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır. Hazırda rayonun Aranlı kəndinin də qazlaşdırılması istiqamətində işlər yekunlaşdırılıb və istismara qəbul mərhələsindədir. Tezliklə həmin yaşayış məntəqəsi də təbii qazla təmin ediləcək.

Həmin gün eyni zamanda Ağdaş rayonunun Aşağı Nemətabad kəndinə də təbii qaz verilib. Bu münasibətlə keçirilən tədbirdə qeyd olunub ki, ümumilikdə 144 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün "birpilləli" sistem əsasında ümumi uzunluğu 19 min 721 metr müxtəlif diametrli metal, polietilen borularla daşıyıcı və paylayıcı qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "birpilləli" tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Hazırda rayonun Orta Ləki kəndinin qaz təsərrüfatının yenidən qurulması istiqamətində işlər yekunlaşdırılıb və istismara qəbul mərhələsindədir. Tezliklə həmin yaşayış məntəqəsi də təbii qazla təmin ediləcək.

Sakinlər kəndə təbii qazın verilməsinə görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını bildiriblər.

"Mavi yanacaq"la təmin edilən yaşayış məntəqələri arasında Tovuzun iki kəndi - Hunanlar və Əhmədabad kəndləri də var. Dekabrın 14-də sözügedən kəndlərə ilk dəfə təbii qazın verilməsi münasibətilə tədbir keçirilib. Rayon İcra Hakimiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə vurğulanıb ki, ümumilikdə 620 fərdi evdən ibarət olan kəndlərin qazlaşdırılması üçün "birpilləli" sistem əsasında ümumi uzunluğu 50 min 727 metr müxtəlif diametrli metal, polietilen borularla daşıyıcı və paylayıcı qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "birpilləli" tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Bu məqamda bildirmək yerinə düşər ki, yaşayış məntəqələrinə təbii yanacağın verilməsi mərasimlərində çıxış edən sakinlər bölgələrin sosial-iqtisadi inkişafına, sakinlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Nadir AZƏRİ**

## Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah



Azərbaycan xalqı böyük dövlətçilik tarixinə malikdir. Bu baxımdan, 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti də milli dövlətçilik tariximizin şanlı səhifələrindən biridir. 23 ay mövcud olmasına baxmayaraq, Xalq Cümhuriyyəti özünün dövlətçilik əsasları və demokratik islahatları ilə müsəlman Şərqinin mayakı rolunu oynamağı bacardı. Şübhəsiz ki, bu gün hər bir azərbaycanlı bu şanlı tarix ilə qürur duyur. Məhz Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi də Cümhuriyyətin dövlətçilik tariximizdə yerinə və roluna verilən böyük önəmin ifadəsidir.

Onu da qeyd edək ki, Cümhuriyyət hökumətinin fəaliyyəti dövründə sosial məsələlər də diqqət mərkəzində olub. Məsələn, ilk hökumət kabinetində Əkinçilik və Əmək Nazirliyi də yaradılıb və nazir vəzifəsi "Hümmət" Partiyasından Milli Şuraya üzv seçilmiş Əkbər ağa Şeyxülislamova həvalə olunub. AXC-nin fəaliyyət göstərdiyi və beş hökumətin formalaşdırıldığı 23 ay ərzində əmək və əhalinin sosial müdafiəsi məsələləri istiqamətində bir sıra addımlar atılıb. Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin sosial siyasətinin əsas istiqaməti ümumi daxili məhsulda istehlak fondunun payının artırılması, əhalinin hər nəfərinə görə istehlak fondunun, ümumi daxili məhsulda milli gəlirin və məşğulluq səviyyəsinin artırılması, əmək şəraitinin yaxşılaşdırılması, təhsil, səhiyyə, mənzil və kommunal təminatın səviyyəsinin yüksəldilməsinə yönəlmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə parlamentin müzakirəsinə müxtəlif sahələrə aid 315 qanun layihəsi təqdim olunmuşdu ki, onlardan 10-u sosial sahəyə aid idi.

Azərbaycan keçmiş SSRİ-nin tərkibində olduğu illərdə də sosial sahə ilə məşğul olan dövlət qurumları fəaliyyət göstərib və sosial müdafiə sistemində sosializm prinsiplərinə üstünlük verilib.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrdə isə dərin sosial-iqtisadi böhran məngənəsində idi. Yalnız Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu böhranın aradan qaldırılması istiqamətində sistemli tədbirlər həyata keçirildi. Məlumdur ki, XX əsrin sonlarında Azərbaycanda dövlət müstəqilliyinin bərpa edilib möhkəmləndirilməsi, demokratik inkişaf yolu ilə irəliləyən respublikamızın beynəlxalq aləmdə nüfuzunun artması məhz Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi və səmərəli fəaliyyəti nəticəsində mümkün olub. "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" deyən Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş sosial siyasətdə əhalinin bütün təbəqələrinin ehtiyac və tələbatı nəzərə alındı və aztəminatlı ailələrin, uşaqların, qocaların sosial müdafiəsi məsələlərinə ümdə əhəmiyyət verildi.

### BU GÜN AZƏRBAYCAN SOSİAL-İQTİSADİ SFERADA SÜRƏTLİ İNKİŞAF YOLUNA QƏDƏM QOYARAQ GƏLƏCƏYƏ DOĞRU İNAMLA ADDIMLAYIR

Əhalinin layiqli sosial müdafiəsini və yaşayış tərzini təmin etmək məqsədi ilə ölkədə genişmiqyaslı pensiya islahatları həyata keçirildi. Əhalinin aztəminatlı hissəsinin digər kateqoriyalarını təşkil edən əlillərin, şəhid ailələrinin, müharibə veteranlarının, pensiyaçıların və s. sosial rifah halının yaxşılaşdırılması da Ulu öndərimizin xüsusi önəm verdiyi sosial məsələlərdən olub.

Bu gün Azərbaycan sosial-iqtisadi sferada sürətli inkişaf yoluna qədəm qoyaraq gələcəyə doğru inamla addımlayır. Əhalinin sosial inkişafı üçün lazım olan hər bir şərait yaradılıb. Əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən geniş proqramlar, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar və s. cəmiyyətin rifah halının yaxşılaşmasına yönəlmiş tədbirlərdir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ulu öndərimizin müəyyənləşdirdiyi sosial siyasəti uğurla davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli formalaşıb və sosial inkişaf məsələləri də dövlət siyasətinin prioritetləri sırasındadır. Dövlət başçısının vurğuladığı kimi, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Onu da qeyd edək ki, ölkəmizdə həyata keçirilən sosial siyasətin başlıca məqsədlərindən biri də cəmiyyətin əsas sosial problemlərindən olan yoxsulluğun səviyyəsinin azaldılmasıdır. Görülən işlər nəticəsində hazırda ölkəmizdə yoxsulluğun səviyyəsinin 5 faiz civarında olması yüksək göstəricidir.

### ƏHALİNİN MƏŞĞULLUĞUNUN TƏMİN OLUNMASI İSTİQAMƏTİNDƏ MÜHÜM ADDIMLAR ATILIR

Ümumiyyətlə, əhalinin rifahının yaxşılaşması istiqamətində görülən işlər yalnız maaşların, pensiya və müavinətlərin artması ilə yekunlaşmır. Respublikamızda aparılan sosial siyasətin məzmunu vətəndaşların sosial vəziyyətinin yaxşılaşması ilə bərabər, onların məşğulluğunun artırılması, daha yaxşı yaşamaları üçün əlavə pul gəlirləri əldə etməsindən ibarətdir. Ötən dövrdə bu istiqamətdə atılan bütün addımlar konkret olaraq cəmiyyətin sosial qayğılarının təmin olunmasına əhəmiyyətli baza formalaşdırıb. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramları davamlı iqtisadi inkişafı təmin etməklə, sosial sahədə qarşıda duran problemlərin həlli üçün etibarlı zəmin yaradıb. Son 15 ildə 2 milyona yaxın iş yerinin açılması da ölkə Prezidentinin bu sahədə uğurlu siyasətinin əyani göstəricisidir.

Son dövrlər əhalinin məşğulluğunun təmin olunması yönündə işlər daha da dinamik xarakter alıb. Belə ki, bu il oktabrın 30-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın təsdiq olunması haqqında Sərəncamın imzalanması bu baxımdan mühüm addımdır. Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) və digər aidiyyəti qurumlar bu Sərəncamdan irəli gələrək 2019-2025-ci illər üçün Tədbirlər Planının layihəsini hazırlayır. Tədbirlər Planı layihəsində Strategiyada nəzərdə tutulan əsas istiqamətlərə uyğun tədbirlər əksini tapacaq.

Bu məqamda vurğulamaq yerinə düşər ki, İşsizlikdən Sığorta Fondunun 2019-cu il üçün nəzərdə tutulan 83 milyon 450 min manat məbləğindəki büdcəsinin 42 milyon manatı məhz özünüməşğulluq tədbirlərinə həsr olunub. Cari ildə hədəf olaraq 7 minədək Azərbaycan ailəsində kiçik müəssisələrin, kiçik ailə təsərrüfatlarının yaradılması qarşıya məqsəd qoyulub. Növbəti ildə bu həcm daha da artırılacaq. Bu fakt isə özlüyündə özünüməşğulluq tədbirləri vətəndaşlarımızın passiv sosial dəstək mexanizmindən aktiv sosial dəstək mexanizminə keçirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

### HƏR KƏSİN DOSTU OLAN DOST MƏRKƏZLƏRİ...

Sosial sahədə reallaşdırılan islahatlardan danışarkən avqustun 9-da Prezident İlham Əliyevin imzaladığı "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı xüsusilə qeyd etmək lazımdır. Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxs (DOST Agentliyi) yaradılması qərara alınıb. Bu Fərman əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətdə mühüm innovativ yeniliyə yol açır. Fərman DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Mərkəzlərinin yaradılması vasitəsilə dövlət xidmətlərinin geniş bir spektrinin - əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər müvafiq sahələr üzrə xidmətlər sisteminin "bir pəncərə"dən operativ, sadələşdirilmiş prosedurlarla, şəffaf və nəzakətli, vətəndaş rahatlığı prinsipi əsasında təqdim olunmasına, xidmətlərin əhatə dairəsinin genişləndirilməsinə imkan verir. ƏƏSMN-in bu haqda yaydığı məlumatda qeyd olunur ki, DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Mərkəzlərinin yaradılması Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın sosial sahə ilə bağlı həyata keçirdiyi mühüm fəaliyyətin növbəti uğurlu davamıdır. Oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev bu haqda bildirib: **"Sosial sahədə biz "ASAN xidmət"in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır. Hesab edirəm ki, bu sahədə vətəndaşlar yaxın gələcəkdə müsbət dəyişiklikləri görəcəklər, artıq görürlər. İndi yerlərdən məlumat gəlir, ancaq biz hələ islahatların birinci mərhələsindəyik".**

Onu da qeyd edək edək ki, dekabrın 10-da dövlət başçısı "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb. Fərmana əsasən, "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Nizamnaməsi, strukturu, "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı, xidmət göstərilməsi qaydası təsdiq edilib. Beləliklə də, sözügedən qurumun qısa müddətə fəaliyyətə başlaması istiqamətində əməli addımlar atılır.

Bütün bunlarla yanaşı, əmək və əhalinin sosial müdafiəsi nazirinin müvafiq əmri ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin yeni strukturunun formalaşdırılması da bu sahədə aparılan islahatların vacib tərkib hissəsidir. Aparılan struktur islahatları tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində idaretmənin optimallaşdırılmasına və işin səmərəliliyinin, bu sahələrdə vətəndaşlara xidmətlərin DOST mərkəzləri müstəvisində tam şəffaf və vətəndaş məmnunluğuna nail olunması prinsipi əsasında keyfiyyətinin artırılmasına xidmət edir.

Ümumiyyətlə, ölkəmizdə həyata keçirilən sosial siyasət, sosial müdafiə sisteminin gücləndirilməsindən söhbət açarkən, bu sahədə dövlət siyasətini icra edən müvafiq qurumların fəaliyyəti də xüsusi qeyd olunmalıdır. Bu baxımdan, bu il yaradılmasının 100 illiyini qeyd etdiyimiz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin önəmli rolunu vurğulamaq yerinə düşər. Bu gün nazir Sahil Babayevin rəhbərliyi ilə bu dövlət qurumu əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin tapşırıqlarının yerinə yetirilməsi, bütövlükdə sosial sahədə həyata keçirilən islahatların uğurla yekunlaşdırılması istiqamətində səylə çalışır. Xüsusilə cari il ərzində nazirliyin fəaliyyətində şəffaflığa, innovasiyalara üstünlük verilməsi cəmiyyətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinə rəğbəti artırır.

Yekun olaraq qeyd edə bilərik ki, atılan bütün addımlar Azərbaycanın sosial dövlət olduğunu bir daha təsdiqləyir. Şübhəsiz ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən mühüm islahatlar sosial müdafiə sisteminin daha da gücləndirilməsini və insanların rifah halının daha da yüksəlməsini təmin edəcək.

**Nardar BAYRAMLI**

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC", "Azadinform", "SİA"

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU